Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 186 (8209) ÇƏRŞƏNBƏ AXŞAMI, 27 avqust 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





## MEHRİBAN ƏLİYEVA: "Ölkəyə və insanlara xidmət edirəmsə - bu, mənim üçün ən yüksək mükafatdır"

**Avqustun 26-sı Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, birinci xanım Mehriban Əliyevanın ad günüdür. Bu münasibətlə Trend İnformasiya Agentliyi Birinci vitse-prezident Mehriban xanım Əliyevaya müraciət edərək ondan özü, fəaliyyəti, ailəsi, onun həyati dəyərləri barədə danışmasını xahiş edib. Mehriban Əliyevanın agentliyə göndərdiyi məktubu oxuculara təqdim edirik.**

Əvvəlcə bu günlərdə mənə ünvanlanmış təbriklərə görə hamıya ürəkdən dərin minnətdarlığımı bildirirəm. Sizin səmimiyyət və mehribanlığınız, dəstək və sevginiz məni dərindən təsirləndirib. Sadə əməyimi qiymətləndirən, ideallarıma inanıb onu bölüşən hər kəsə minnətdaram. İstər ictimai, istərsə də dövlətçilik fəaliyyətimdə daim çalışıram ki, sarsılmaz həqiqətlərə söykənim. Əxlaq və mənəviyyat, insaniyyət və şəfqət, inam və məhəbbət, xeyirxahlıq və saf niyyətlər Yaradanın hər birimizə bəxş etdiyi ən gözəl keyfiyyətlərdir.

Mən ənənəvi dəyərlərin əsas götürüldüyü Azərbaycanın ziyalı ailəsində dünyaya göz açıb, boya-başa çatmışam. Bizi, gənc nəsli böyüklərin nüfuzunun və davranışının ən yaxşı nümunə olduğu, ailənin hər bir kiçik üzvünə üzərinə düşən məsuliyyəti daşımağın öyrədildiyi böyük və möhkəm ailədəki ab-hava formalaşdırıb.

Yaşa dolduqca böyükləri, valideynləri anlamağa başladım, onlara sonsuz minnətdarlıq hissi duydum. Çünki onlar həqiqətə və mənəviyyata can atmağı öyrətdilər. Onlar öz varlığı ilə ləyaqət və şərəf hissinin hər şeydən üstün olduğunu aşıladılar. Öyrətdilər ki, alicənablıq və dürüstlük, mənəviyyat və şəfqət, xeyirxah əməllər, inam və məhəbbət - həqiqi xoşbəxtliyə və harmoniyaya aparan yoldur.

Məsuliyyət hissini, hər bir işin əvvəlindən maksimum nəticə əldə etməyə çalışmağı, özünə tələbkar və intizamlı münasibəti mənə anam - nəcib, parlaq, prinsipial, istedadlı, məğrur, son dərəcə gözəl bir xanım olan Aida İmanquliyeva aşılayıb. Hər bir ədalətsizliyə qarşı barışmaz mövqedə dayanan, işinə, elmə və pedaqoji fəaliyyətə hədsiz sədaqətli olan anam öz qısa həyatında inanılmaz zirvələri fəth etdi. O, müasir ərəb ədəbiyyatının tədqiqi sahəsində öz yeni elmi məktəbini yaratdı, Azərbaycan Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun ilk qadın direktoru oldu. Anam dünya şöhrətli alim idi, onun əsərləri bu gün də elmi dairələrdə yüksək qiymətləndirilir. Lakin bununla yanaşı, o, hər zaman adı böyük hərflərlə yazılan əsl Qadın olaraq qalırdı. Onun böyük sevən ürəyi, incə və səxavətli qəlbi var idi. Anamı itirdiyim vaxtdan artıq 27 il ötür. Onun yoxluğunu hər zaman hiss edirəm.

Atam akademik Arif Paşayev mənim üçün insanlıq, xeyirxahlıq və müdriklik idealıdır. Onun elm və təhsil sahəsindəki nailiyyətləri haqqında çox yazılıb. Atamın insani keyfiyyətləri - onun tükənməz nikbinliyi, başqalarının dərdinə şərik olmaq, onları dəstəkləmək, hamı ilə dil tapmaq xüsusiyyəti, öz müsbət enerjisini ətrafındakı bütün insanlarla bölüşmək istedadı, müdrikliyi və sonsuz xeyirxahlığı mənim həyat amalımdır. O, uzun illərdir ki, Milli Aviasiya Akademiyasına rəhbərlik edir. Tələbələrlə rektor arasında qarşılıqlı hörmət, isti yoldaşlıq münasibətləri atamın yüksək şəxsi və peşəkar keyfiyyətlərinə daha bir sübutdur.

Xoşbəxtəm ki, həyatımın böyük hissəsini müasir Azərbaycanın dahi şəxsiyyəti Heydər Əliyevin yanında yaşamışam. Bu nəhəng şəxsiyyətə hədsiz ehtiram, heyranlıq, pərəstiş və sevgi hissini ömrümün sonunadək yaşadacağam. Heydər Əliyev güc və qüdrət, hədsiz intellekt, mətin iradə, yüksək əxlaq və ləyaqət, sonsuz vətənpərvərlik, doğma torpağa və xalqa məhəbbət rəmzidir. O, əlçatmaz ideal və mənim həyatımda əsas Müəllimdir.

Ailə mənim üçün, düşünürəm ki, elə hər kəs üçün istənilən şəraitdə həyatın əsas mənası və stimulu, istinad nöqtəsi və güc mənbəyidir.

Həyat yoldaşım Prezident İlham Əliyev 16 ildən çoxdur ki, xalqımıza xidmət edir. Azərbaycanın qüdrətli, uğurla inkişaf edən, bütün dünyada nüfuz qazanan və bizim - müstəqil Azərbaycan vətəndaşlarının haqlı olaraq qürur duyduğu bir ölkə olması istiqamətində onun bütün nailiyyətləri öz xalqına təmənnasız sevgi və sədaqətinə əsaslanır. Onun başlıca missiyası - hər zaman və hər yerdə Vətənimizin maraqlarını qorumaqdır.

O, bu son dərəcə çətin yolda nədən güc alır? İlk növbədə öz xalqının dəstəyindən, inamından və sevgisindən.

İnanıram ki, xoşbəxt şəxsi ailə həyatı, sevgi və qarşılıqlı hörmət abhavası da burada əvəzolunmaz rol oynayır.

Mən öz övladlarımla fəxr edirəm. İlk növbədə ona görə ki, onlar nəcib və ləyaqətli insan kimi böyüyüblər. Onların hərəkətlərinə görə heç vaxt utanc və məyusluq hissi keçirməmişəm. Çünki Leyla, Arzu və Heydər öz işinə, təhsilinə ciddi və məsuliyyətlə yanaşır, ailə ənənələrini yüksək tutur, hörmət bəsləyir, onların dəqiq mənəvi amalları var. Xoşbəxtəm ki, övladlarım xeyirxah və başqalarının dərd-sərinə biganə qalmayan insanlardır. Mən onlara inanıram, çünki dürüstlük və ləyaqətlə yanaşı, bu həyatda ən yaxşı bələdçi - insanlıq və şəfqətdir.

Mən nadir hallarda müsahibə verirəm və özüm haqqında danışmağı xoşlamıram. Həyatım elə gətirib ki, mən ictimai şəxsiyyətəm, lakin heç vaxt tanınmağa, məşhur olmağa can atmamışam. Əgər hansısa nəticələr əldə etməyə nail oluramsa, fəaliyyətim fayda gətirirsə, ölkəyə və insanlara xidmət edirəmsə, yardıma ehtiyacı olanlara kömək etməyi bacarıramsa - bu, mənim üçün ən yüksək mükafatdır.

Gərəkli və faydalı olmaq, insanların sənə inanması və səni dəstəkləməsi xoşbəxtlikdir. Xoşbəxtlik vicdan və niyyətin təmiz olması, sevgi və xeyirxahlığın həyatın əsas qayəsinə çevrilməsidir.

Şübhəsiz ki, hər bir uğur və nailiyyət komanda işindən asılıdır. Fəxr edirəm ki, bütün bu illər ərzində mənimlə çiyin-çiyinə parlaq, istedadlı, məqsədyönlü, zəhmətsevər, həssas insanlar mənim məsləkdaşlarım, həmfikirlərim olublar. Onların hamısına - uzun illər ərzində işlədiyim hər kəsə, bizim layihələrə və təşəbbüslərə heç olmasa bircə dəfə qoşulanlara dərin təşəkkürümü və ehtiramımı bildirirəm.

Ən yaxşı xüsusiyyətlərini əsrlər boyu qoruyub saxlamaq istedadına, qəhrəmanlığına, doğma torpağa sədaqətinə, xeyirxahlığına və qəlbinin genişliyinə görə Azərbaycan xalqına, ölkəmizin hər bir vətəndaşına səmimi-qəlbdən minnətdarlığımı bildirirəm!

Qoy Uca Allah hər birinizi və bizim gözəl Vətənimizi qorusun!

*Sevgi və səmimiyyətlə,*

***sizin Mehriban ƏLİYEVA***

## A.H.Paşazadənin "Heydər Əliyev" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında dövlət-din münasibətlərinin formalaşması, milli həmrəyliyin və mənəvi-əxlaqi dəyərlərin bərqərar olması sahəsində xüsusi xidmətlərinə görə Şeyxülislam Allahşükür Paşazadə "Heydər Əliyev" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 avqust 2019-cu il*

## Şeyxülislam Allahşükür Paşazadəyə

Hörmətli Şeyx həzrətləri!

Sizi anadan olmağınızın 70, şeyxülislamlıq fəaliyyətinizin 40 illiyi münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Xalqımızın yaşamış olduğu taleyüklü hadisələr zamanı Siz həm dini rəhbər, həm də ictimai xadim kimi həmişə yüksək vətənpərvərlik və əsl vətəndaş mövqeyi nümayiş etdirmisiniz. Azərbaycan həqiqətlərinin, xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ədalətli mövqeyimizin dünya ictimaiyyətinə çatdırılması sahəsində səmərəli xidmətlər göstərmisiniz.

Siz bütün həyatınız boyu cəmiyyətdə yüksək əxlaqi dəyərlərin və milli həmrəyliyin bərqərar olması yolunda əzmlə çalışmış, xalqımızın mənəvi sərvətlərinin qorunub saxlanması istiqamətində uğurlu fəaliyyət göstərmisiniz. Şeyxülislamlıq fəaliyyətiniz dövründə bir sıra ilklərə imza atmısınız. Xüsusilə Müqəddəs Kitabımız Qurani-Kərimin tərcüməsinin təşkil olunması və nəşr edilməsi, Aşura mərasimləri zamanı qanvermə aksiyalarının keçirilməsi, ölkəmizdə vəhdət namazı ənənəsinin dirçəldilməsi məhz Sizin adınızla bağlıdır. Azərbaycanda nümunəvi dövlət-din münasibətlərinin formalaşmasına verdiyiniz töhfələr də danılmazdır.

Sizin fəaliyyətinizdə təkcə Azərbaycanın deyil, həm də dini lideri olduğunuz bütün Qafqaz müsəlmanlarının problem və qayğılarının beynəlxalq ictimaiyyətə çatdırılması mühüm yer tutur. Siz daim müsəlman həmrəyliyi prinsiplərindən çıxış edərək İslam dünyasında törədilən qanlı hadisələrə öz etirazınızı bildirmiş, müqəddəs ziyarətgahların, qədim tarixi abidələrin mühafizə olunması üçün beynəlxalq təşkilatlar və böyük dövlətlər qarşısında məsələ qaldırmış, dünyada sülhə və əmin-amanlığa nail olunması istiqamətində ardıcıl fəaliyyət göstərmisiniz.

Müxtəlif konfessiyaların liderləri arasında böyük nüfuza malik şəxs kimi Siz bir çox beynəlxalq dini qurum və mərkəzlərin rəhbərliyində təmsil olunur, sivilizasiyalararası və mədəniyyətlərarası dialoqun dərinləşməsinə sanballı töhfələr verirsiniz.

Hörmətli Şeyx həzrətləri!

Bu əlamətdar gündə Sizə uzun ömür, möhkəm cansağlığı, nəcib və şərəfli fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 avqust 2019-cu il*

## Azərbaycan Respublikasının Birinci vitse-prezidenti zati-aliləri xanım Mehriban Arif qızı Əliyevaya

Hörmətli Mehriban Arif qızı!

Ad gününüz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Siz yüksək dövlət vəzifələrində çoxillik fəaliyyətinizlə həmvətənləriniz arasında layiq olduğunuz hörmət və böyük beynəlxalq nüfuz qazanmısınız.

Sizi Rusiyanın böyük dostu, dövlətlərimiz arasında strateji tərəfdaşlıq münasibətlərinin möhkəmlənməsinin prinsipial tərəfdarı kimi tanıyırıq. Əminəm ki, bu münasibətlər Rusiya və Azərbaycan xalqlarının mənafeyi naminə, regional sabitliyin və təhlükəsizliyin möhkəmlənməsi maraqlarına uyğun olaraq bundan sonra da məhsuldar şəkildə inkişaf edəcək.

Hörmətli Mehriban Arif qızı, Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, xoşbəxtlik, əmin-amanlıq və uğurlar arzulayıram. Ailənizə səmimi salamımı çatdırmağı xahiş edirəm.

***Vladimir PUTİN,***
***Rusiya Federasiyasının Prezidenti***

Hörmətli Mehriban Arif qızı!

Ad gününüz münasibətilə Sizə Rusiya Federasiyasının Hökuməti adından və şəxsən öz adımdan səmimi təbriklərimi və ən xoş arzularımı çatdırıram.

Dost Azərbaycanın qarşısında duran irimiqyaslı sosial-iqtisadi vəzifələrin həllində Sizin mühüm rolunuzu xüsusi qeyd etmək istəyirəm. BMT-nin və UNESKO-nun xətti ilə böyük beynəlxalq mədəni və humanitar təşəbbüslərin həyata keçirilməsində Sizin fəal iştirakınız hörmət hissi doğurur.

Rusiya Federasiyasının yüksək dövlət mükafatı - "Dostluq" ordeni ilə təltif edilməyiniz Sizin Rusiya ilə Azərbaycan arasında mehriban qonşuluq və tərəfdaşlıq münasibətlərinin möhkəmlənməsinə verdiyiniz şəxsi töhfənizin təsdiqidir. Əminəm ki, çoxplanlı əməkdaşlığın gələcək inkişafı, bundan sonra da müxtəlif sahələrdə perspektivli birgə layihələrin həyata keçirilməsi Rusiya və Azərbaycanın maraqlarına tamamilə cavab verir.

Hörmətli Mehriban Arif qızı, Sizə səmimi-qəlbdən cansağlığı, xoşbəxtlik, əmin-amanlıq və bütün təşəbbüslərinizdə yeni-yeni uğurlar arzulayıram.

*Hörmətlə,*

***Dmitri MEDVEDEV,***
***Rusiya Federasiyası Hökumətinin Sədri***

Hörmətli Mehriban Arif qızı!

Ad gününüz münasibətilə ən xoş və səmimi təbriklərimi qəbul edin.

Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurası Rusiya-Azərbaycan dostluq münasibətlərinin möhkəmlənməsi istiqamətində Sizin səylərinizi yüksək qiymətləndirir. Sizin ictimai və mədəni-humanitar əlaqələrin inkişafına böyük şəxsi töhfənizi xüsusi qeyd etmək istəyirəm, çünki məhz bunun sayəsində ikitərəfli qarşılıqlı fəaliyyət konstruktiv məcrada inkişaf edir.

Rusiya ilə Azərbaycan arasında münasibətlərin böyük potensialı var. Bunu bizim bu yaxınlarda Bakıda keçirdiyimiz görüşlər və danışıqlar da təsdiq edib. Fəal parlamentlərarası dialoq aparılır, regionlararası əməkdaşlıq möhkəmlənir. Əminəm ki, əməkdaşlığımız bundan sonra da yeni birgə təşəbbüslər və layihələrlə zənginləşəcək.

Sizə səmimi-qəlbdən cansağlığı, rifah və ölkələrimizin xalqları arasında dostluq münasibətlərinin möhkəmlənməsi işində uğurlar, ailənizə isə xoşbəxtlik və firavanlıq arzulayıram.

Sizə yüksək ehtiramımı qəbul edin.

*Hörmətlə,*

***Valentina MATVİYENKO,***
***Rusiya Federasiyası Federal Məclisi***
***Federasiya Şurasının sədri***

## Moldova Respublikasının Prezidenti zati-aliləri cənab İqor Dodona

Hörmətli cənab Prezident!

Milli bayramınız - Müstəqillik Günü münasibətilə Sizi və bütün Moldova xalqını səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Moldova arasındakı ənənəvi dostluq münasibətləri, ölkələrimizin ikitərəfli və çoxtərəfli əsasda əməkdaşlığı xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı və uğurlar, dost Moldova xalqına isə sülh və tərəqqi diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı, 23 avqust 2019-cu il*

# Mehriban Əliyevadan körpələrə növbəti hədiyyə













**Avqustun 26-da Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və qızı Leyla Əliyeva paytaxtın Sabunçu rayonunda 260 saylı, Binəqədi rayonunda 141 saylı körpələr evi-uşaq bağçalarının açılışlarında, həmçinin valideyn himayəsindən məhrum və xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün Heydər Əliyev Fondunun "Dalğa Beach" istirahət mərkəzində təşkil etdiyi növbəti əyləncə və istirahət proqramında iştirak ediblər.**

AZƏRTAC xəbər verir ki, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva və qızı Leyla Əliyeva əvvəlcə paytaxtın Sabunçu rayonunda 260 saylı körpələr evi-uşaq bağçasının açılışında iştirak etdilər.

Bu körpələr evi-uşaq bağçası 1937-ci ildən fəaliyyət göstərir. Bağçanın köhnə binası ötən ilin noyabrında sökülüb, yerində Heydər Əliyev Fondu tərəfindən yeni bina inşa olunub. Yeni bina 140 yerlik olmaqla 7 qrupdan, musiqi-idman zalından, mətbəx, tibb otağı, camaşırxana və digər köməkçi otaqlardan ibarətdir. Bağça zəruri inventarla, mebel dəstləri ilə təchiz edilib. Ümumi sahəsi 2000 kvadratmetrdən çox olan bina havalandırma və yanğından mühafizə sistemləri ilə təchiz edilib.

Gələcəyimiz olan uşaqların xoşbəxt böyümələri, onların həm fiziki, həm də mənəvi cəhətdən sağlam olmaları işinə Azərbaycan dövləti xüsusi diqqət göstərir. Dövlət səviyyəsində bu istiqamətdə icra olunan layihələrə Heydər Əliyev Fondunun töhfələri də böyük əhəmiyyətə malikdir. Fondun təşəbbüsü və dəstəyi ilə indiyədək paytaxtla yanaşı, bölgələrimizdə də çoxsaylı körpələr evi-uşaq bağçası inşa edilib, təmirə ehtiyacı olanlar isə müasir səviyyədə yenidən qurulub.

260 saylı körpələr evi-uşaq bağçasının ərazisində geniş abadlıq-quruculuq işləri aparılıb, uşaqların asudə vaxtının səmərəli təşkili üçün müvafiq şərait yaradılıb.

❖ ❖ ❖

Sonra Birinci vitse-prezident Mehriban Əliyeva və qızı Leyla Əliyeva paytaxtın Binəqədi rayonundakı 141 saylı körpələr evi-uşaq bağçasının açılışında iştirak etdilər.

Körpələr evi-uşaq bağçası üçün bina Heydər Əliyev Fondunun təşəbbüsü ilə əsaslı təmir edilib. Bina bağça kimi 1980-ci ildə ilk dəfə fəaliyyətə başlayıb və indiyədək təmir edilməmişdi. Beş min kvadratmetrdən çox ərazisi olan 3 korpusdan ibarət körpələr evi-uşaq bağçası təmirdən əvvəl 8 qrupda 150 uşağa xidmət göstərirdi. Yeni binada isə 210 yerlik körpələr evi-uşaq bağçası fəaliyyət göstərir. Burada komplektləşdirilmiş qrup otaqları, mətbəx və yeməkxana, idman və musiqi zalları və digər otaqlar var. İkimərtəbəli məktəbəqədər təhsil müəssisəsinin otaqları və dəhlizləri uşaqların sevimli nağıl qəhrəmanlarının şəkilləri ilə bəzədilib, qrup otaqları zəruri inventarlarla, mebel dəstləri ilə təchiz edilib. Məktəbəqədər təhsil müəssisəsində yeddisi Azərbaycan, dördü isə rusdilli bölmə olmaqla, ümumilikdə 11 qrup fəaliyyət göstərəcək. Körpələr evi-uşaq bağçasında 2 yaşdan 6 yaşadək uşaqların təlim-tərbiyəsi ilə 42 nəfərdən ibarət peşəkar heyət məşğul olacaq. Bağçanın ərazisində abadlıq işləri görülüb, yaşıllıqlar salınıb, işıqlandırma sistemi quraşdırılıb. Burada balacaların istirahəti üçün oyun və idman avadanlıqları da var. Bir sözlə, bu müəssisədə uşaqların rahatlığını, istirahətini və ilkin biliklərə yiyələnmələrini təmin etmək, həmçinin onların bacarıq və istedadlarını aşkara çıxarmaq üçün hərtərəfli lazımi şərait yaradılıb.



❖ ❖ ❖

"Dalğa Beach" istirahət mərkəzində Heydər Əliyev Fondunun təşəbbüsü ilə təşkil olunan tədbirə xüsusi avtobuslarla gətirilən uşaqları nağıl qəhrəmanları qarşıladılar. Nizami, Suraxanı, Xətai rayonlarının uşaq evlərinin, Daun Sindromlu Uşaqların Reabilitasiya Mərkəzinin və 11 saylı inteqrasiya təlimli internat məktəbinin sakinləri bu məkanda unudulmaz anlar yaşadılar.

Şənliyə Birinci vitse-prezident Mehriban Əliyeva və qızı Leyla Əliyeva da qoşuldular.

Balacalara xas olan hədsiz səmimiyyət və sevinclə əylənən uşaq evlərinin sakinləri və xüsusi qayğıya ehtiyacı olan uşaqlar müxtəlif oyunlarda, attraksionlarda iştirak etdilər, isti yay günündə hovuzda üzdülər, onlar üçün hazırlanmış müxtəlif əyləncəli proqramlarla maraqlı vaxt keçirdilər, ətrafdakılarla sevinclərini bölüşdülər.

Xeyriyyəçiliyi, böyüməkdə olan nəslin hərtərəfli qayğı ilə əhatə olunmasını fəaliyyətinin prioritet istiqamətləri kimi müəyyən edən Heydər Əliyev Fondu növbəti dəfə balacalara unudulmaz anlar yaşatdı. Hər bir uşağa Heydər Əliyev Fondunun hədiyyələri təqdim olundu. Şənlikdə ümumilikdə 200-dən çox uşaq iştirak etdi.

# Mehriban ƏLİYEVA: “Bizim vahid arzumuz Qarabağ şikəstəsini Qarabağ torpağında birlikdə eşitməkdir”





Avqustun 26-da Heydər Əliyev Mərkəzində bir qrup məcburi köçkünün iştirakı ilə tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva tədbirdə iştirak edib və ad gününü onlarla birlikdə qeyd edib.

“Burada toplaşanların bir arzusu var - ərazi bütövlüyümüzün tezliklə bərpası”. Bu sözləri Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev dedi. Komitə sədri ölkəmizdə qaçqınların və məcburi köçkünlərin problemlərinin həlli istiqamətində görülən işlərdən danışdı.

Sonra konsert proqramı təqdim edildi.

Tədbirə Birinci vitse-prezident Mehriban Əliyeva və qızı Leyla Əliyeva da gəldilər.

Əvvəlcə tədbir çərçivəsində təşkil edilən sərgi ilə tanışlıq oldu.

Tədbirdə Xocavənd, Şuşa, Ağdam, Füzuli rayonlarının təmsilçilərinin, “Şuşanın dağları” ansamblının ifaları səsləndi.

Məcburi köçkünlər qarşısında çıxış edən Birinci vitse-prezident **Mehriban ƏLİYEVA** dedi:





- Hörmətli soydaşlar.

Əziz bacılar və qardaşlar.

Məni bugünkü məclisə dəvət etdiyinizə görə sizə dərin minnətdarlığımı bildirirəm.

Bu gün ad günümdə sizinlə bərabər olmaq, doğma insanların əhatəsində olmaq mənim üçün çox xoşdur.

Əminəm ki, sizin hər birinizin qəlbində yaşayan arzu hər bir azərbaycanlının ən müqəddəs arzusudur - torpaqlarımızın işğaldan azad olunması, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi və Qarabağ torpağında Azərbaycanın üçrəngli bayrağının dalğalanması.

Mən sizin hər birinizə dərin hörmətimi, minnətdarlığımı və məhəbbətimi çatdırıram. Bu gün sizə cənab Prezidentin böyük hörmətini və məhəbbətini çatdırıram. Bildiyiniz kimi, uzun illərdir ki, məcburi köçkünlərin və qaçqınların yaşayış şəraitinin yaxşılaşdırılması dövlətimizin ən prioritet məsələlərindən biridir. Bu illər ərzində bu sahədə çox işlər görülüb. Məcburi köçkünlərin, bizim əziz soydaşlarımızın yaşayış şəraitinin yaxşılaşdırılması, onların işlə təmin olunması, təhsil, tibb və digər xidmətlərlə təmin edilməsi Azərbaycan dövlətinin borcudur. Azərbaycan dövləti bu yolda çox böyük nailiyyətlər əldə edib.

Altmış minə yaxın soydaşımız yeni mənzillərlə təmin olunub. Ötən il 5900 qaçqın və məcburi köçkün ailəsi yeni evlərlə təmin edilib. Bu il 6 minə yaxın yeni mənzil istifadəyə veriləcək. “Qobu Park-2” yaşayış qəsəbəsində işlər bu yaxınlarda tamamlanacaq və yenə də 1300 məcburi köçkün ailəsinin yaşayış şəraiti yaxşılaşacaq. Amma bu, müvəqqətidir. Çünki bir daha deyirəm, bizim arzumuz başqadır. Bizim vahid arzumuz Qarabağ şikəstəsini Qarabağ torpağında birlikdə eşitməkdir.

Mən əminəm ki, Prezidentimizin, dövlətimizin qəti siyasəti və mövqeyi, Allahın köməyi ilə biz buna nail olacağıq. Çox sağ olun.

Sonra xatirə şəkli çəkdirildi.

Məcburi köçkünlər Birinci vitse-prezident Mehriban Əliyevanı ad günü münasibətilə təbrik edərək ən xoş arzularını çatdırdılar. Onlar dövlətin, o cümlədən Birinci vitse-prezidentin qaçqınların və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması istiqamətində gördüyü işlərə görə minnətdarlıqlarını bildirdilər, Mehriban Əliyevanın rəhbərliyi ilə həyata keçirilən layihələrin əhəmiyyətini vurğuladılar.

Birinci vitse-prezidentə “Şuşanın qalası” rəsm əsəri hədiyyə edildi.

Mehriban Əliyeva hər zaman qaçqınların və məcburi köçkünlərin diqqətini hiss etdiyini deyərək, bundan sonra da dövlətin onların yanında olacağını vurğuladı.

Ermənistan silahlı qüvvələrinin Azərbaycan torpaqlarına hərbi təcavüzü nəticəsində doğma yurdlarından didərgin salınmış 1 milyondan çox soydaşımızın bütün qayğıları, sosial problemləri, münaqişənin siyasi cəhətdən həlli Azərbaycan dövlətinin daim diqqət mərkəzindədir, bu istiqamətdə ardıcıl, məqsədyönlü tədbirlər həyata keçirilir. Onlar üçün müasir qəsəbə və çoxmərtəbəli binalardan ibarət yaşayış kompleksləri salınır, qaçqınların və məcburi köçkünlərin mənzil-məişət şəraiti yaxşılaşdırılır, məşğulluqlarının təmin olunması üçün xüsusi dövlət proqramları qəbul edilib və uğurla həyata keçirilir. Mehriban Əliyevanın Birinci vitse-prezident kimi keçirdiyi ilk müşavirə də Bakı və Sumqayıt şəhərlərində qəzalı və yararsız binalarda yaşayan məcburi köçkünlərin yeni mənzillərə köçürülməsi məsələsinə həsr edilmişdi və bununla bağlı ciddi tədbirlər görüldü.









# İslam dəyərlərinə dərin ehtiram





**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və qızı Leyla Əliyeva avqustun 26-da Bibiheybət ziyarətgah kompleksini ziyarət ediblər.**

AZƏRTAC xəbər verir ki, VII əsrin yadigarı, müqəddəs qəbirlərin sayına görə islam dünyasının üçüncü ziyarətgahı sayılan Bibiheybətdə Peyğəmbər nəslinin dörd nümayəndəsi uyuyur. Milli-mənəvi dəyərlərimizə dərindən bağlı olan Ulu Öndər Heydər Əliyev 1994-cü ilin martında Qurban bayramı günündə bu müqəddəs ocağı ziyarət edib, 1997-ci il iyulun 23-də, Məhəmməd Peyğəmbərin mövludu günündə burada yeni məscid kompleksinin bünövrəsini qoyub. Bir il sonra, yenə də Peyğəmbərin mövludu günündə məscidin əsas korpusunun açılış mərasimində iştirak edib.



Prezident İlham Əliyevin maddi-mədəniyyət abidələrimizin, müqəddəs ocaqlarımızın bərpası ilə bağlı imzaladığı fərman və sərəncamlar, verdiyi tapşırıqlar sırasında Bibiheybət məscid kompleksinin genişləndirilməsi də əksini tapıb. Dövlət başçısı 2005-ci və 2007-ci illərdə buranı ziyarət edib. 2008-ci ildə Bibiheybət ziyarətgah kompleksinin əsaslı yenidənqurmadan sonra açılışında Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri iştirak ediblər.

Ulu Öndərin adını daşıyan Heydər Əliyev Fondu milli-mənəvi dəyərlərimizin qorunması, onların təbliği, dünyaya çatdırılması istiqamətində çox mühüm işlər görür. Qədim məscidlərimizin bərpası, yeni müasir məscid komplekslərinin inşası bu baxımdan mühüm əhəmiyyət kəsb edir.

Birinci vitse-prezident Mehriban Əliyevaya məsciddə müqəddəs Qurani-Kərim hədiyyə olundu.

# Azərbaycan dövləti tərəfindən yaşlı nəslə xüsusi diqqət və qayğı göstərilir

Avqustun 26-da Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və qızı Leyla Əliyeva Bilgəhdəki Pensiya yaşına çatmış şəxslər üçün sosial xidmət müəssisəsində olublar.

AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezident Mehriban Əliyeva əvvəlcə burada sağlamlığı məhdud insanların yaşayışı ilə maraqlandı, onlarla söhbət etdi.

Müəssisə sakinləri ilə görüşdə ahıl insanlar dövlətin onlara diqqət və qayğısından razılıqlarını bildirdilər, rahat yaşamaları üçün hər cür şəraitin yaradıldığını vurğuladılar. Qeyd olundu ki, müəssisənin sakinləri arasında yaradıcı insanlar, müxtəlif sənət sahibləri var. Burada yaşayan ahıllar müxtəlif səhiyyə ocaqlarında müayinə edilir, onlar üçün mütəmadi olaraq konsertlər, bayram şənlikləri təşkil olunur.

Pensiya yaşına çatmış şəxslər üçün sosial xidmət müəssisəsində hazırda 235 nəfər yaşayır.

Azərbaycan dövləti tərəfindən yaşlı nəslə xüsusi diqqət və qayğı göstərilir. Dövlət onların ən böyük himayəçisidir. Ahılların sosial müdafiəsinin gücləndirilməsi, sağlamlıqlarının qorunması məqsədilə ölkəmizdə davamlı tədbirlər həyata keçirilir.









# Birinci vitse-prezident Mehriban Əliyeva Şeyxülislam Allahşükür Paşazadəni təbrik edib

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadəni anadan olmasının 70, şeyxülislamlıq fəaliyyətinin 40 illiyi münasibətilə təbrik edib.

AZƏRTAC xəbər verir ki, Mehriban Əliyeva Allahşükür Paşazadəni mənalı ömrünü islam dininin əsl mahiyyətinin təbliği və təşviqinə, Qafqazda davamlı sülhün, əmin-amanlığın bərqərar olmasına həsr etmiş görkəmli din xadimi kimi səciyyələndirib. Qeyd edib ki, Şeyxülislam Allahşükür Paşazadə bütün dinlərin əsasını təşkil edən sülhsevərlik, dözümlülük, dinc birgəyaşayış, bərabərlik, qardaşlıq, humanizm kimi dəyərlərin qorunub saxlanılması və cəmiyyətimizdə əsrlərlə mövcud olan tolerantlıq ənənələrinə xalqımızın sadiqliyinin təmin olunması istiqamətində uzun illərdir uğurla fəaliyyət göstərir.

Təbrikdə deyilir ki, Qafqaz Müsəlmanları İdarəsi sədrinin ölkəmizdə ayrı-ayrı din və təriqətlər arasında qarşılıqlı hörmət və etimad mühitinin, multikultural dəyərlərin qorunması və inkişaf etdirilməsi, Azərbaycanın dünyada tolerantlığın unikal məkanı olaraq şöhrət tapması kimi xoşməramlı niyyətlərə xidmət edən məqsədyönlü işlərə, xalqlar və dinlərarası dialoqun genişləndirilməsinə verdiyi əvəzsiz töhfələr dövlətimiz tərəfindən daim yüksək qiymətləndirilib. Fəaliyyətinin ayrı-ayrı illərində müxtəlif mükafatlara, o cümlədən Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 26 avqust tarixli sərəncamı ilə ölkəmizin ən yüksək dövlət təltifi olan "Heydər Əliyev" ordeninə layiq görülməsi bunun bariz nümunəsidir.

Birinci vitse-prezident Mehriban Əliyeva Şeyxülislam Allahşükür Paşazadəyə cansağlığı, firavanlıq, xoşbəxtlik, bütün işlərində və təşəbbüslərində uğurlar arzulayıb.

# Azərbaycan Respublikasının Mənzil Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci və 13-cü bəndlərini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Mənzil Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 8, maddə 612; 2011, № 12, maddə 1108; 2012, № 6, maddə 501; 2017, № 5, maddə 732, № 7, maddə 1298, № 11, maddə 2190; 2019, № 1, maddə 14, № 3, maddə 368; Azərbaycan Respublikasının 2019-cu il 3 may tarixli 1584-VQD nömrəli Qanunu) aşağıdakı məzmunda 146.4-cü maddə əlavə edilsin:

"146.4. Dövlət mənzil fondunun bu Məcəllənin 146.1-ci maddəsinə aid edilməyən yaşayış sahələrinin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi hallarda özəlləşdirilməsinə yol verilir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 iyul 2019-cu il*

# "Azərbaycan Respublikasının Mənzil Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 12 iyul tarixli 1653-VQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Mənzil Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2009-cu il 27 avqust tarixli 153 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Mənzil Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 12 iyul tarixli 1653-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının Mənzil Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının Mənzil Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. "Azərbaycan Respublikası Mənzil Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 27 avqust tarixli 153 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 8, maddə 629; 2012, № 11, maddə 1085; 2013, № 5, maddə 496; 2017, № 7, maddə 1341; 2019, № 5, maddə 820) 2.1-ci bəndində "və 103.2.1-ci" sözləri ",103.2.1-ci, 146.4-cü" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 avqust 2019-cu il*

# "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 7-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 7, maddə 405; 2001, № 11, maddələr 689, 690, № 12, maddə 736; 2002, № 5, maddə 242; 2003, № 1, maddələr 11, 16, № 6, maddə 256; 2004, № 1, maddə 10, № 4, maddə 202, № 5, maddə 314, № 6, maddə 397; 2005, № 2, maddə 62; 2006, № 2, maddə 67, № 11, maddə 923, № 12, maddə 1005; 2007, № 11, maddələr 1053, 1082; 2008, № 5, maddə 354; 2009, № 6, maddə 410; 2010, № 3, maddə 173, № 4, maddələr 275, 276; 2011, № 2, maddə 71, № 12, maddə 1074; 2012, № 6, maddə 523; 2014, № 8, maddə 956, № 11, maddə 1376; 2015, № 2, maddələr 77, 88, № 5, maddə 485; 2017, № 1, maddə 3, № 5, maddə 707; 2018, № 1, maddə 28, № 11, maddələr 2196, 2218) aşağıdakı dəyişikliklər edilsin:

1. 10-1-ci maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Müvafiq icra hakimiyyəti orqanı bələdiyyə üzvləri və qulluqçularının peşəkarlıq səviyyəsinin artırılması məqsədilə xarici dövlətlərin yerli özünüidarəetmə orqanları, onların assosiasiyaları və ixtisaslaşdırılmış təşkilatları ilə təcrübə mübadiləsini təşkil edir.".

2. Aşağıdakı məzmunda 49-1-ci maddə əlavə edilsin:

**"Maddə 49-1. Bələdiyyə fəaliyyətinin təşkilinə kömək göstərilməsi**

Müvafiq icra hakimiyyəti orqanı bələdiyyələrin fəaliyyətinin təşkilinə kömək edir və onlara yerli özünüidarəetmə fəaliyyətinin qanunauyğun həyata keçirilməsi sahəsində metodoloji yardım göstərilməsi üzrə tədbirlər görür.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 iyul 2019-cu il*

# "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 9 iyul tarixli 1642-VQD nömrəli Qanununun tətbiqi və "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 27 iyul tarixli 162 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 9 iyul tarixli 1642-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 27 iyul tarixli 162 nömrəli Fərmanında aşağıdakı dəyişikliklər edilsin:

3.1. 3-cü hissə (birinci halda) üzrə:

3.1.1. ikinci-beşinci abzaslar müvafiq olaraq 3.1-ci, 3.2-ci, 3.3-cü və 3.6-cı bəndlər hesab edilsin;

3.1.2. 3.3-cü bəndə "3-cü bəndində" sözlərindən sonra ", 49-1-ci maddəsində" sözləri əlavə edilsin;

3.1.3. aşağıdakı məzmunda 3.4-cü və 3.5-ci bəndlər əlavə edilsin:

"3.4. "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikası Qanununun 10-1-ci maddəsinin birinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi həyata keçirir;

3.5. "Bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikası Qanununun 10-1-ci maddəsinin ikinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi (təcrübə mübadiləsi ediləcək müvafiq xarici dövlətlərlə, yerli özünüidarəetmə orqanlarının assosiasiyaları və ixtisaslaşdırılmış təşkilatları ilə bağlı Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin rəyi nəzərə alınmaqla) həyata keçirir;";

3.2. 3-cü hissə (ikinci halda) dördüncü hissə hesab edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 avqust 2019-cu il*

# 15 yaşı tamam olmamış Azərbaycan Respublikası vətəndaşının fərdi identifikasiya kartının tətbiqi müddətləri ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1994, № 18, maddə 244; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 3, maddə 142; 2002, № 6, maddə 328; 2004, № 7, maddə 505; 2006, № 12, maddə 1033; 2007, № 1, maddə 4; 2010, № 5, maddə 386; 2011, № 2, maddə 71, № 12, maddə 1086; 2012, № 2, maddə 62; 2013, № 5, maddə 466, № 7, maddə 796; 2016, № 2, maddə 198; 2017, № 12 (I kitab), maddə 2264; 2018, № 10, maddə 1981, № 11, maddə 2215) 9.1-ci maddəsində "2020-ci" sözləri (hər iki halda) "2022-ci" sözləri ilə əvəz edilsin.

**Maddə 2.** "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2013-cü il 19 aprel tarixli 621-IVQD nömrəli Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 5, maddə 470, № 12, maddə 1501; 2015, № 6, maddə 682; 2016, № 2 (I kitab), maddə 199, № 12, maddə 2026; 2017, № 12 (I kitab), maddə 2241; 2018, № 7 (I kitab), maddə 1433) 2-ci maddəsində "2020-ci" sözləri "2022-ci" sözləri ilə əvəz edilsin.

**Maddə 3.** "Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2013-cü il 19 aprel tarixli 626-IVQD nömrəli Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 5, maddə 475, № 12, maddə 1505; 2015, № 6, maddə 682; 2016, № 11, maddə 1757; 2017, № 1, maddə 28, № 12 (I kitab), maddə 2241; 2018, № 7 (I kitab), maddə 1433) 2-ci maddəsində "2020-ci" sözləri "2022-ci" sözləri ilə əvəz edilsin.

**Maddə 4.** "15 yaşı tamam olmamış Azərbaycan Respublikası vətəndaşının fərdi identifikasiya kartı haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 2, maddə 83, № 11, maddə 1364; 2015, № 6, maddə 682; 2018, № 10, maddə 1982; 2019, № 3, maddə 370) 8-ci maddəsində "2020-ci" sözləri "2022-ci" sözləri ilə əvəz edilsin.

**Maddə 5.** "Azərbaycan Respublikasının 1994-cü il 8 fevral tarixli 782 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Konsul Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 30 sentyabr tarixli 1317-IVQD nömrəli Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 10, maddə 1083) 2-ci maddəsində "2020-ci" sözləri "2022-ci" sözləri ilə əvəz edilsin.

**Maddə 6.** "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 1 fevral tarixli 1468-VQD nömrəli Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 3, maddə 371) 2-ci maddəsində "2020-ci" sözləri "2022-ci" sözləri ilə əvəz edilsin.

**Maddə 7.** "Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 1 fevral tarixli 1469-VQD nömrəli Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 3, maddə 372) 2-ci maddəsində "2020-ci" sözləri "2022-ci" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 iyul 2019-cu il*

# "15 yaşı tamam olmamış Azərbaycan Respublikası vətəndaşının fərdi identifikasiya kartının tətbiqi müddətləri ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 12 iyul tarixli 1666-VQD nömrəli Qanununun tətbiqi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "15 yaşı tamam olmamış Azərbaycan Respublikası vətəndaşının fərdi identifikasiya kartının tətbiqi müddətləri ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 12 iyul tarixli 1666-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "15 yaşı tamam olmamış Azərbaycan Respublikası vətəndaşının fərdi identifikasiya kartının tətbiqi müddətləri ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını iki ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "15 yaşı tamam olmamış Azərbaycan Respublikası vətəndaşının fərdi identifikasiya kartının tətbiqi müddətləri ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 avqust 2019-cu il*

# "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq "Dövlət rüsumu haqqında" və "Təhsil haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 27 iyun tarixli 1620-VQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alıram:**

"Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 9, maddə 685; 2012, № 3, maddə 197, № 4, maddə 289, № 6, maddə 532; 2016, № 1, maddə 76, № 11, maddələr 1804, 1828, № 12, maddə 2086; 2017, № 7, maddə 1360, № 10, maddə 1800, № 12 (I kitab), maddə 2313; 2018, № 2, maddə 216, № 12 (I kitab), maddə 2545; 2019, № 3, maddələr 403, 405, №5, maddə 847; Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 19 iyul tarixli 782 nömrəli Fərmanı) aşağıdakı dəyişikliklər edilsin:

1. 2.3-cü bəndə "29.0.6-cı" sözlərindən sonra ", 29.0.11-ci ("Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi" dövlət elektron məlumat sisteminin yaradılması və ondan istifadənin təmin edilməsi üzrə)" sözləri əlavə edilsin.

2. 2.4-cü bəndə "29.0.11-ci" sözlərindən sonra "("Tələbə-məzun" və "Şagird-məzun" dövlət elektron məlumat sistemlərinin yaradılması və onlardan istifadənin təmin edilməsi üzrə)" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 avqust 2019-cu il*

# Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2013-cü il 27 dekabr tarixli 875-IVQD nömrəli Qanununun tətbiqi barədə" 2014-cü il 3 fevral tarixli 100 nömrəli və "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" 2011-ci il 16 fevral tarixli 386 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2013-cü il 27 dekabr tarixli 875-IVQD nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 3 fevral tarixli 100 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 2, maddə 107, № 9, maddə 1027, № 10, maddə 1175; 2016, № 9, maddə 1464, № 8, maddə 1521) 6-cı hissəsində, 8.1-ci və 8.2-ci bəndlərində "əmək müqaviləsi bildirişi üzrə elektron informasiya sisteminin" sözləri "Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin "Əmək müqaviləsi bildirişi" altsisteminin" sözləri ilə əvəz edilsin.

2. "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 16 fevral tarixli 386 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 2, maddə 90, № 7, maddə 625, № 11, maddə 996; 2012, № 9, maddə 853, № 11, maddə 1084; 2013, № 2, maddə 124, № 12, maddə 1525; 2014, № 7, maddə 789, № 9, maddə 1053; 2015, № 1, maddə 17, № 3, maddələr 263, 264, № 6, maddə 705, № 8, maddə 908, № 10, maddə 1134; 2016, № 3, maddə 437, № 5, maddə 859, № 6, maddələr 1051, 1072; 2017, № 9, maddə 1633; 2018, № 3, maddə 433, № 6, maddə 1245; 2019, № 1, maddə 73, № 2, maddə 245, № 5, maddə 845; Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 14 iyun tarixli 744 nömrəli və 19 iyul tarixli 785 nömrəli fərmanları) 7-ci hissəsində "289" rəqəmləri "309" rəqəmləri ilə və "4536" rəqəmləri "4366" rəqəmləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 avqust 2019-cu il*

# “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu bəndini rəhbər tutaraq **qərara alır:**

“Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 1, maddə 11, № 12, maddə 706; 2005, № 12, maddə 1083; 2006, № 12, maddə 1005; 2010, № 3, maddə 173, № 4, maddə 276; 2016, № 2 (I kitab), maddə 205, № 4, maddə 628; 2017, № 5, maddə 699; 2018, № 12 (I kitab), maddə 2523) 6.2.5-ci maddəsinə “öhdəliklərinin” sözündən sonra “, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud” sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 iyul 2019-cu il*

# “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 9 iyul tarixli 1644-VQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 9 iyul tarixli 1644-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 avqust 2019-cu il*

# “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alır:**

“Dövlət rüsumu haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 740; 2002, № 12, maddə 706; 2003, № 1, maddə 23, № 8, maddə 428, № 12 (I kitab), maddələr 676, 698; 2005, № 1, maddə 1, № 6, maddə 462, № 8, maddə 684, № 10, maddələr 873, 905, № 12, maddə 1083; 2006, № 3, maddələr 223, 225, № 6, maddə 481, № 12, maddələr 1015, 1029; 2007, № 2, maddə 80, № 12, maddə 1203; 2008, № 3, maddə 158, № 6, maddə 462, № 7, maddə 602, № 12, maddə 1047; 2009, № 1, maddə 5, № 2, maddə 56, № 3, maddə 160, № 7, maddə 519, № 12, maddə 947; 2010, № 4, maddə 276, № 6, maddə 485, № 10, maddə 840, № 11, maddə 939; 2011, № 1, maddə 12, № 4, maddələr 245, 264, № 11, maddə 985, № 12, maddə 1100; 2012, № 1, maddə 4, № 6, maddələr 508, 518, № 7, maddə 646, № 10, maddə 947, № 12, maddələr 1216, 1227, 1229; 2013, № 3, maddə 213, № 5, maddə 474, № 11, maddələr 1269, 1279, 1299, 1301, 1308, № 12, maddələr 1485, 1504; 2014, № 1, maddə 6, № 5, maddə 468, № 6, maddələr 603, 605, № 7, maddələr 774, 780, № 11, maddələr 1345, 1370; 2015, № 12, maddə 1432; 2016, № 1, maddələr 15, 36, № 4, maddə 630, № 5, maddə 849, № 6, maddə 1014, № 10, maddə 1605, № 11, maddələr 1753, 1776, 1780, 1790, № 12, maddələr 2006, 2051; 2017, № 3, maddələr 337, 341, № 5, maddə 742, № 6, maddə 1028, № 7, maddə 1308, № 8, maddə 1506, № 12 (I kitab), maddə 2265; 2018, № 3, maddə 405, № 4, maddələr 639, 647, № 6, maddələr 1186, 1194, № 7 (I kitab), maddələr 1415, 1444, № 8, maddə 1675, № 12 (I kitab), maddə 2489; 2019, № 1, maddə 45; Azərbaycan Respublikasının 2019-cu il 19 fevral tarixli 1508-VQD nömrəli, 29 mart tarixli 1550-VQD və 1552-VQD nömrəli və 17 may tarixli 1589-VQD nömrəli qanunları) 16.1.4-cü maddəsi ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 iyul 2019-cu il*

# “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 9 iyul tarixli 1643-VQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 9 iyul tarixli 1643-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 avqust 2019-cu il*

# Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 27-ci bəndini rəhbər tutaraq, “Sığorta fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 18 dekabr tarixli 1400-VQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

Azərbaycan Respublikasının Mülki Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (I kitab), maddə 250, № 5, maddə 323; 2002, № 12, maddə 709; 2003, № 8, maddə 420; 2004, № 3, maddə 123, № 5, maddə 318, № 6, maddə 415, № 10, maddə 761, № 11, maddə 901; 2005, № 2, maddə 61, № 6, maddə 466, № 8, maddələr 684, 692, 693, № 11, maddə 996, № 12, maddə 1085; 2006, № 2, maddə 68, № 3, maddə 225, № 5, maddə 387, № 6, maddə 478, № 8, maddə 657, № 12, maddə 1005; 2007, № 2, maddə 80, № 6, maddə 560, № 8, maddə 745, № 10, maddə 937, № 11, maddə 1053, № 12, maddələr 1215, 1219; 2008, № 3, maddə 145, № 6, maddə 456, № 7, maddə 602, № 12, maddə 1049; 2009, № 2, maddə 47, № 5, maddə 295, № 6, maddə 404, № 7, maddə 517; 2010, № 2, maddə 75, № 3, maddə 171, № 4, maddələr 265, 266, 276; 2011, № 2, maddə 71, № 7, maddə 586, № 8, maddə 750, № 12, maddələr 1073, 1102; 2012, № 1, maddə 5, № 5, maddə 403, № 6, maddə 498; 2013, № 1, maddə 15, № 6, maddə 620, № 11, maddə 1280, № 12, maddələr 1469, 1478; 2014, № 2, maddə 96, № 7, maddə 768; 2015, № 3, maddə 254, № 5, maddə 512, № 7, maddə 814, № 10, maddə 1093; 2016, № 1, maddə 26, № 2 (I kitab), maddələr 186, 204, № 3, maddə 401, № 4, maddələr 640, 646, № 6, maddə 1005, № 7, maddə 1248, № 12, maddələr 1998, 2018; 2017, № 2, maddələr 151, 153, № 5, maddələr 703, 735, № 6, maddə 1035, № 11, maddə 1953, № 12 (I kitab), maddələr 2210, 2234, 2239; 2018, № 2, maddə 142, № 4, maddə 650, № 5, maddələr 845, 851, № 11, maddə 2212, № 12 (I kitab), maddələr 2467, 2518, 2526, 2533; 2019, № 1, maddələr 23, 50; Azərbaycan Respublikasının 2019-cu il 23 aprel 1566-VQD nömrəli, 3 may tarixli 1575-VQD və 1584-VQD nömrəli, 17 may tarixli 1588-VQD və 1593-VQD nömrəli qanunları) aşağıdakı məzmunda 921.6-cı maddə əlavə edilsin:

“921.6. “Sığorta fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq sığortaçıya moratorium tətbiq edildikdə, sığorta müqaviləsinə vaxtından əvvəl xitam verilməsi nəticəsində sığortalıya qaytarılmalı olan sığorta haqqının qaytarılması moratorium qüvvədə olduğu müddət ərzində dayandırılır.”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 iyul 2019-cu il*

# Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq, “Məşğulluq haqqında” Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1196-VQ nömrəli Qanununun icrasını təmin etmək məqsədi ilə **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2, I kitab, maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 139, 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969, 1979, № 12, I kitab, maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, № 1, maddə 19, № 2, maddələr 160, 162, 163, № 3, maddələr 383, 401, 404, № 4, maddə 646, № 5, maddələr 857, 860, 862, 876, 883, № 6, maddələr 1153, 1188, № 7, I kitab, maddələr 1435, 1437, 1438, № 10, maddə 1963, № 11, maddələr 2188, 2191, 2214, 2217, 2231, № 12, I kitab, maddələr 2473, 2475, 2499, 2507, 2512, 2522; 2019, № 1, I kitab, maddələr 4, 6, 15, 18, 23, 44, № 3, maddələr 374, 389, № 4, maddələr 579, 581, 587, 595; Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1534-VQD nömrəli, 9 aprel tarixli 1558-VQD, 1561-VQD, 1562-VQD nömrəli, 3 may tarixli 1577-VQD, 1583-VQD nömrəli, 17 may tarixli 1595-VQD nömrəli, 13 iyun tarixli 1609-VQD nömrəli, 27 iyun tarixli 1627-VQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1. 43.1-ci maddəyə “538-1,” rəqəmlərindən sonra “540.5,” rəqəmləri əlavə edilsin.

2. 194-cü maddənin dispozisiyasında “əlillərin, sağlamlıq imkanları məhdud 18 yaşınadək şəxslərin və sosial müdafiəyə xüsusi ehtiyacı olan digər” sözləri “sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən” sözləri ilə əvəz edilsin və “, yaxud dövlət büdcəsinə vəsait köçürülməməsinə” sözləri çıxarılsın.

3. 523-cü maddənin “Qeyd” hissəsində “işsiz statusu almış” sözləri “işaxtaran və ya işsiz kimi qeydiyyata alınmış” sözləri ilə əvəz edilsin.

4. 540-cı maddə aşağıdakı redaksiyada verilsin:

“Maddə 540. Məşğulluq haqqında qanunvericiliyin pozulması

540.1. İşəgötürən tərəfindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma), həmin orqanın göndərişi ilə işə qəbul edilənlər, o cümlədən kvota üzrə işə qəbul edilənlər və işdən çıxarılanlar haqqında aylıq hesabatların təqdim edilməməsinə görə -

üç yüz manatdan beş yüz manatadək məbləğdə cərimə edilir.

540.2. İşəgötürən tərəfindən yeni iş yeri yarandığı və ya iş yeri boşaldığı gündən ən geci 5 (beş) iş günü müddətində əməkhaqqı göstərilməklə bu barədə məlumatların müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş qaydada və formada mərkəzləşdirilmiş elektron informasiya sisteminə daxil edilməməsinə görə -

beş yüz manatdan min manatadək məbləğdə cərimə edilir.

540.3. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) göndərişi təqdim edildiyi gündən işəgötürən tərəfindən ən geci 5 (beş) iş günü müddətində boş iş yerinin tutulub-tutulmaması ilə bağlı qərarın müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təqdim edilməməsinə görə -

üç yüz manatdan beş yüz manatadək məbləğdə cərimə edilir.

540.4. Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulan hallar istisna olmaqla, işəgötürənin təşəbbüsü ilə istehsalın səmərələşdirilməsi, əməyin təşkilinin təkmilləşdirilməsi, müəssisənin ləğv edilməsi, işçilərin sayının və ya ştatların ixtisar edilməsi ilə əlaqədar olaraq işçilərin sərbəstləşdirilməsinin işəgötürən tərəfindən müvafiq həmkarlar ittifaqı orqanlarına əvvəlcədən (azı 3 ay əvvəl) yazılı məlumat verilmədən və ya işçilərin hüquqlarının və mənafelərinin gözlənilməsi barədə onlarla danışıqlar aparılmadan həyata keçirilməsinə görə -

beş yüz manatdan min manatadək məbləğdə cərimə edilir.

540.5. “Məşğulluq haqqında” Azərbaycan Respublikası Qanununun 4.6-4.8-ci maddələrinin tələblərinin dövlət və yerli özünüidarəetmə orqanları tərəfindən pozulmasına görə -

vəzifəli şəxslər əlli manatdan yüz manatadək məbləğdə, hüquqi şəxslər yüz manatdan iki yüz manatadək məbləğdə cərimə edilir.”.

5. 576-cı maddə üzrə:

5.1. adına və 576.1-ci maddəsinə “Azərbaycan” sözündən əvvəl “Azərbaycan Respublikasında işaxtaran və işsiz şəxslərin işə düzəlməsi, habelə” sözləri əlavə edilsin;

5.2. aşağıdakı məzmunda 576.3-cü və 576.4-cü maddələr əlavə edilsin:

“576.3. Azərbaycan Respublikasında işaxtaran və işsiz şəxslərin işə düzəlməsində, habelə Azərbaycan Respublikası vətəndaşlarının xarici ölkələrdə işə düzəlməsində vasitəçilik fəaliyyətini həyata keçirən hüquqi şəxslər tərəfindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş qaydada və formada iş üçün müraciət edən və işlə təmin olunan şəxslərin sayı barədə məlumatların müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təqdim edilməməsinə görə -

beş yüz manatdan min manatadək məbləğdə cərimə edilir.

576.4. Azərbaycan Respublikasında işaxtaran və işsiz şəxslərin işə düzəlməsində, habelə Azərbaycan Respublikası vətəndaşlarının xarici ölkələrdə işə düzəlməsində vasitəçilik fəaliyyətini həyata keçirən hüquqi şəxslər tərəfindən toplanılmış informasiya ehtiyatlarına dair müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanla (qurumla) elektron qaydada qarşılıqlı məlumat mübadiləsinin təmin edilməməsinə görə -

beş yüz manatdan min manatadək məbləğdə cərimə edilir.”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 iyul 2019-cu il*

# “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2019-cu il 12 iyul tarixli 1660-VQD nömrəli Qanununun tətbiqi və “Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2019-cu il 12 iyul tarixli 1660-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. “Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259, № 3, maddə 460, № 4, maddə 670, № 6, maddələr 1025, 1063, № 7, maddə 1272, № 9, maddə 1468, № 10, maddələr 1614, 1638; 2017, № 2, maddələr 176, 202, № 3, maddə 351, № 4, maddələr 530, 537, № 6, maddə 1101, № 7, maddələr 1314, 1346, № 8, maddə 1521, № 9, maddə 1637, № 10, maddələr 1788, 1798, № 11, maddələr 2003, 2027, № 12, maddələr 2290, 2320; 2018, № 1, maddə 36, № 2, maddələr 198, 201, № 3, maddələr 418, 428, 443, 445, № 5, maddələr 914, 918, 926, 955, № 6, maddələr 1225, 1234, № 7 (I kitab), maddələr 1465, 1477, 1494, 1504, № 8, maddələr 1678, 1697, № 9, maddə 1840, № 11, maddələr 2244, 2256, 2273, 2289, № 12 (I kitab), maddələr 2541, 2566, 2573, 2610; 2019, № 1, maddələr 52, 68, № 3, maddə 426, № 4, maddələr 602, 630, № 5, maddələr 825, 846, 852; Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 14 iyun tarixli 743 nömrəli və 25 iyun tarixli 755 nömrəli fərmanları) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 4.1-ci bəndə “538-1.4 - 538-1.6” rəqəmlərindən sonra “, 540.1, 540.2, 540.3 (hər iki halda)” sözləri və “552-ci maddəsinin adında və mətnində” sözlərindən sonra “, 576.3 (hər iki halda), 576.4-cü maddələrində” sözləri əlavə edilsin;

3.2. aşağıdakı məzmunda 4.3-1-ci bənd əlavə edilsin:

“4.3-1. həmin Məcəllənin 540.2-ci maddəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;”;

3.3. 4.20-ci bənddən “, 540.1, 540.2” rəqəmləri çıxarılsın;

3.4. aşağıdakı məzmunda 4.20-1-ci bənd əlavə edilsin:

“4.20-1. həmin Məcəllənin 540.1, 540.3 (hər iki halda), 576.3 (hər iki halda) və 576.4-cü maddələrində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur;”;

3.5. 5.4-cü bənddə “540” rəqəmləri “540.1, 540.2, 540.3, 540.4” rəqəmləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 avqust 2019-cu il*

# “Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2019-cu il 9 iyul tarixli 1637-VQD nömrəli Qanununun tətbiqi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2019-cu il 9 iyul tarixli 1637-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 avqust 2019-cu il*

**Dinamik inkişaf yolunda olan müstəqil Azərbaycanın beynəlxalq aləmdə geniş təbliği, humanist və milli-mənəvi dəyərlərə sadiq dövlət imicinin formalaşdırılması istiqamətində atılan addımlar təkcə rəsmi tədbirlərlə məhdudlaşmır. Son 15 ildə cəmiyyətdə əlahiddə statuslu qeyri-hökumət təşkilatı kimi fəaliyyət göstərərək milyonlarla insanın ümid və pənah yerinə çevrilmiş Heydər Əliyev Fondu da bu missiyanın əsas daşıyıcılarından biri kimi çıxış edir.**



# Yüksək sosial rifaha və mədəni-mənəvi tərəqqiyə xidmət edən nəcib missiya

Qısa zamanda böyük uğurlara imza atan, inkişafyönümlü layihələri gerçəyə çevirən, fəaliyyətini qloballaşan dünyanın yeni aktual çağırışlarına adekvat şəkildə qurmağı bacaran fond Azərbaycanı beynəlxalq miqyasda layiqincə təmsil edərək milli mənafeləri qoruyur.

Təkcə Azərbaycanda deyil, ölkəmizin sərhədlərindən kənarda da böyük rəğbət qazanan, hər zaman köməyə, yardıma ehtiyac duyanların yanında olan Heydər Əliyev Fondu Ulu Öndərin ideallarını rəhbər tutaraq ümumbəşəri mədəniyyətə, sülhə və əmin-amanlığa sanballı töhfələrini verir. Qloballaşan dünyada Ümummilli Liderin azərbaycançılıq fəlsəfəsinin əhəmiyyətini vurğulamaq niyyətinə köklənən fond milli irsin, habelə Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında da əvəzsiz xidmətlər göstərir.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin Ümummilli Liderin xatirəsinin əbədiləşdirilməsini nəzərdə tutan 10 mart 2004-cü il tarixli fərmanında ictimai əsaslarla yaradılması dəstəklənən fondun fəaliyyəti yalnız insanlara yüksək diqqət və qayğı nümunələri ilə, habelə humanist aksiyalarla məhdudlaşmır. Fond Azərbaycan mədəniyyəti, incəsənəti, musiqisi, həmçinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı əsl həqiqətlər barəsində beynəlxalq ictimaiyyətin dolğun şəkildə məlumatlandırılması sahəsində də mühüm nailiyyətlərə imza atmışdır. Yaranışı böyük amallardan rişələnən, milli dövlətçilik ideyalarını yeni nəsillərə çatdırmaq və aşılamaq kimi müqəddəs ideyalara xidmət edən, 2004-cü ilin mayında - Ümummilli Liderin ad günündə açılışı olan Heydər Əliyev Fondu bu gün yardıma ehtiyacı olan hər kəsin ümid yerinə, istinadgahına çevrilmişdir.

Ötən 15 ildə fond Azərbaycanın ictimai həyatında necə böyük rol oynadığını, qarşıya qoyduğu məqsədlərin əhəmiyyətinə, miqyasına və sanbalına görə ölkəmizdə analoqu olmayan qeyri-dövlət qurumu olduğunu sübuta yetirmişdir. Yerli əhəmiyyətli sosial problemlərin həllinə, insanların yaradıcı potensialının, bilik və bacarıqlarının aşkara çıxarılmasına, qabiliyyətlərini göstərməsinə, inkişaf etdirməsinə yardımçı olmaq Heydər Əliyev Fondunun məqsədləri sırasında öncül yerlərdən birini tutur. Azərbaycanın, azərbaycançılığın, tolerantlıq və multikulturalizm kimi mütərəqqi dəyərlərin qorunması, uşaq və gənclərin hərtərəfli biliyə malik vətəndaş kimi yetişdirilməsi, milli həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması fondun genişmiqyaslı fəaliyyətinin mühüm məqamları kimi xüsusi vurğulanmalıdır.

Ümumiyyətlə, fondun məqsədlərini ümumi şəkildə aşağıdakı ardıcıllıqla qruplaşdırmaq olar: Ulu Öndər Heydər Əliyevin ölkəmizin sosial-iqtisadi, mədəni tərəqqisi, sivil dünyaya inteqrasiyası, xalqın maddi rifahının yaxşılaşması naminə müəyyən etdiyi, işləyib hazırladığı siyasətin öyrənilməsinə, təbliğinə və bu ideyaların həyata keçirilməsinə dəstək vermək; elm, təhsil, mədəniyyət, səhiyyə, idman, ekologiya kimi sahələri əhatə edən proqram və layihələri hazırlayıb həyata keçirmək; Azərbaycan Respublikasının ərazisində və xaricdə aktual mövzulara dair konfrans və seminarlar təşkil etmək; uşaqların, yaradıcı gənclərin, incəsənət xadimlərinin sərgilərini təşkil etmək; dini tolerantlığın, multikulturalizmin bərqərar olmasına, vətəndaş cəmiyyəti quruculuğuna, qloballaşan dünyaya inteqrasiya prosesində milli-mənəvi dəyərlərin qorunub saxlanılmasına dəstək vermək!

İnsanlığın yüksəlişinə xidmət edən nəcib və humanist dəyərlərin inkişafına, fərqli mədəniyyətlərin dialoquna çalışan Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESKO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın xidmətləri də xüsusi vurğulanmalıdır. Onun əzmkarlığı, təşəbbüskarlığı, həyata keçirilən proqram və layihələrə, ümumən Heydər Əliyev Fondunun işinə kreativ münasibəti Ulu Öndərin adını daşıyan təşkilatın öz fəaliyyətində kifayət qədər geniş spektri əhatə etməsini şərtləndirən başlıca amillərdəndir.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva qloballaşma şəraitində insan amilinə həssas münasibətin vacibliyini xüsusilə vurğulayır: *"Bu gün biz müasir texnika və qloballaşma əsrində yaşayırıq. Fikrimcə, zəmanənin ən böyük təzadlarından biri ondan ibarətdir ki, əldə edilən tərəqqi, kommunikasiya imkanları insanların birləşməsinə, daha sıx ünsiyyət qurmasına şərait yaratsa da, gerçək həyatda biganəlik, insanlar arasında uçurum artır. Bəzən nəinki bəşəriyyətin səsini eşitmirik, hətta qonşu qonşunu eşitmir, qardaş qardaşa kömək əlini uzatmır. Bu gün dünyanın qarşılaşdığı ən ağrılı problemlərdən biri mənəvi idealların ucuzlaşması, onların saxta ideallarla əvəz edilməsidir"*.

Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın humanist fəaliyyəti, qayğıkeşliyi, eləcə də hansısa problemlərlə qarşılaşan, hansısa məqamda hüquqları pozulan sıravi vətəndaşların ümid, pənah yerinə çevrilməsi istiqamətindəki fəaliyyəti heç də fondun indiyə qədər gördüyü işlərlə məhdudlaşmır. Hələ 1995-ci ildə Mehriban xanım Əliyeva "Azərbaycan Mədəniyyətinin Dostları" Xeyriyyə Fondunu yaratmış və fondun təşəbbüsü ilə 1996-cı ildən Azərbaycan, ingilis, rus dillərində çap olunan "Azərbaycan-İrs" jurnalı ölkə həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılması və təbliği işinə böyük dəstək olmuşdur. Bu fondun xətti ilə festivallar, sərgilər, mədəniyyət tədbirləri və konsertlər təşkil etməklə ölkəmizin mədəni irsinin təbliği, onun milli və regional səviyyələrdə mühafizəsi sahəsində də misilsiz xidmətlər göstərmişdir. Sözügedən fondun himayəsi altında müxtəlif müsabiqələrdən, bədii sərgilərdən tutmuş xeyriyyə konsertlərinə və musiqi festivallarına qədər çoxsaylı layihələr həyata keçirilmişdir.

2004-cü ildən etibarən Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın Azərbaycanın ictimai həyatına gətirdiyi yeniliklər isə onun rəhbərliyi altında fəaliyyət göstərən fondların işi ilə məhdudlaşmayaraq daha genişmiqyaslı xarakter daşımışdır. Bunlardan biri də Azərbaycanda "birinci xanım" və yaxud "birinci ledi" institutunun geniş mənada məhz Mehriban xanım Əliyevanın adı ilə bağlı olması, həmçinin sözügedən anlayışın Azərbaycan leksikonuna 2003-cü ilin oktyabrından sonra onun simasında daxil edilməsidir. Mehriban xanım Əliyeva bu ictimai vəzifəsi ilə daim Azərbaycan xalqına yaxın olduğunu sübuta yetirmiş, Şərq mədəniyyətində birinci xanım tituluna daha geniş rakursdan yanaşılmasına yol açmış, eyni zamanda, "birinci ledi" statusunun kifayət qədər məsuliyyətli yük olduğuna diqqət çəkərək demişdir: *"Aydın şəkildə dərk etmək lazımdır ki, müəyyən anda sən fərdi şəxsdən ictimai şəxsiyyətə çevrilirsən. Sən artıq təkcə özünü və ya öz ailəni yox, öz ölkəni təmsil edirsən. Bu barədə özünə hesabat verməli, sözlərində, qərarlarında, hərəkətlərində daha təmkinli olmalısan. Bu, çox məsuliyyətli yükdür"*.

Həyata keçirdiyi layihələr, irəli sürdüyü nəcib və xeyirxah təşəbbüslər təkcə Azərbaycanda yox, beynəlxalq miqyasda da Mehriban xanım Əliyevanın dərin inam və etimad qazanmasına, nəcib missiyalar daşıyıcısı və Azərbaycan mədəniyyətinin fəal təbliğatçısı kimi tanınmasına səbəb olmuşdur. Bunun məntiqi nəticəsi kimi Mehriban xanım Əliyevanın 2004-cü ilin sentyabrında UNESKO-nun xoşməramlı səfiri seçilməsi də tamamilə məntiqəuygun hadisə olmuşdur. Ölkəmizin birinci xanımı yeni statusla bu mötəbər təşkilatda təkcə Azərbaycanın deyil, bütün türk xalqlarının mədəni irsinin təbliğatçısı kimi şərəfli missiyanı yerinə yetirmək imkanı qazanmışdır. Hələ 2004-cü ilin dekabrında Kazan şəhərində (Tatarıstan) UNESKO-nun qeyri-maddi mədəni irsin qorunmasına dair regional seminarında Mehriban xanım bu yöndə konkret təşəbbüslə çıxış edərək türk xalqlarının mədəniyyətini əhatə edən regional layihələrin hazırlanacağını bildirmişdir.

Mehriban xanım Əliyevanın UNESKO-nun xoşməramlı səfiri seçilməsi ilə Heydər Əliyev Fondunun Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması sahəsindəki fəaliyyəti bir qədər də genişlənmişdir. "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyinin beynəlxalq miqyasda qeyd olunması, Azərbaycanın bir sıra görkəmli alimlərinin, yazıçı və bəstəkarların yubileylərinin keçirilməsi bu fəaliyyətin mühüm nəticələri kimi diqqəti çəkir.

UNESKO xəttilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı reallıqların dünyaya çatdırılması da fondun fəaliyyətində mühüm istiqamətlərdən olmuşdur. Təşkilatın xətti ilə hazırlanmış musiqi albomuna "Qarabağ xanəndələri" adının qoyulması yolu ilə Qarabağın əzəli və əbədi Azərbaycan torpağı olduğu, muğamın isə bu torpağın dünyaya bəxş etdiyi nadir sənət nümunəsi sayıldığı nümayiş etdirilmişdir. Fondun təşəbbüsü ilə "Qarabağ" adlı kitabın çapa hazırlanması və işıq üzü görməsi Azərbaycanın, Qarabağın tarixi keçmişinin öyrənilməsi və dünyada təbliği baxımından böyük əhəmiyyət daşımışdır.

Mehriban xanım Əliyevanın UNESKO xətti ilə keçirilən tədbirlər çərçivəsində Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş əraziləri, həmin ərazilərdə Azərbaycan xalqına məxsus tarixi, mədəni və dini abidələrin dağıdılmasına toxunmayan bir çıxışını belə xatırlamaq çətindir. O, təkcə çıxışlarında deyil, rəhbərlik etdiyi təşkilatların fəaliyyətində də Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması istiqamətində böyük işlər görür. Dünyanın bir çox dillərində nəşr olunmuş "Azərbaycan həqiqətləri" adlı kitabda Qarabağın tarixi, Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi, Xocalıda törətdikləri soyqırımı, erməni terror təşkilatlarının dinc azərbaycanlılara, türk insanına qarşı törətdiyi vəhşiliklər barədə dolğun məlumatlar əksini tapmışdır. Bundan başqa, Fond Ermənistanın Xocalı şəhərində törətdiyi soyqırımını dünya ictimaiyyətinə çatdırmaq üçün bir neçə dildə sənədli film hazırlamışdır.

UNESKO-nun xoşməramlı səfiri olaraq Mehriban xanım Əliyeva Azərbaycan dili və ədəbiyyatının təbliğində də mühüm rol oynayır. Fransanın məşhur ali məktəblərindən olan Şərq Dilləri və Mədəniyyətləri İnstitutunda (INALCO) Azərbaycan dili fakültəsinin fəaliyyətə başlaması, Azərbaycan ədiblərinin, elm xadimlərinin, ziyalılarının UNESKO səviyyəsində yubileylərinin təşkil olunması azərbaycançılıq ideyasının dünyada təbliği yolunda görülən işlərin tərkib hissəsidir.

2009-cu ilin mart ayında Azərbaycanın birinci xanımının təşəbbüsü ilə Bakıda keçirilən Beynəlxalq muğam festivalı isə Azərbaycan mədəniyyətinin, musiqisinin bütün dünyada tanıdılması və təbliği istiqamətində mühüm tədbirlərdən biri kimi yadda qalmışdır. Son 10 ildə Azərbaycan televiziyası ilə yayımlanan muğam müsabiqələri isə istedadlı muğam ifaçılarının üzə çıxarılması, dəstəklənməsi baxımından daha bir uğurlu layihə kimi özünü təsdiqləmişdir.

2011-ci ilin may ayında Azərbaycanın gənc ifaçılarının Almaniyada keçirilən "Avrovizion-2011" musiqi yarışmasındakı parlaq qələbəsində də fondun təşkilatçılığı və dəstəyi mühüm rol oynamışdır. Heydər Əliyev Fondunun prezidentinin "Avrovizion-2012"nin Bakıda keçirilməsi ilə bağlı yaradılmış Təşkilat Komitəsinin sədri təyin edilməsi də bu mənada təsadüfi deyildi. Azərbaycanın birinci xanımının rəhbərliyi altında musiqi festivalına hazırlıq işləri uğurla həyata keçirilmiş və bütün lazımi tədbirlər görülmüşdür. "Avrovizion-2012"nin Azərbaycanda yüksək səviyyədə təşkili milli-mənəvi dəyərlərimizin bəşəri dəyərlər müstəvisində özünəməxsus yer tutmasında mühüm hadisə olmuşdur.

Xüsusi vurğulamaq lazımdır ki, bir müddət əvvəl - 2019-cu il iyulun 7-də UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası çərçivəsində Bakı Konqres Mərkəzində keçirilən iclasda Azərbaycanın Xan sarayı ilə birgə Şəkinin tarixi mərkəzinin sözügedən mədəniyyət qurumunun Ümumdünya İrs Siyahısına daxil edilməsi ölkəmizin zəngin mədəni xəzinəsinin təbliği və mühafizəsi yönümündə aparılan siyasətin növbəti böyük uğuru olmuşdur. İndiyədək Heydər Əliyev Fondunun rəhbərinin misilsiz xidmətləri sayəsində Azərbaycanın xalça sənəti, muğam sənəti, tar ifaçılığı, aşıq sənəti, habelə Novruz bayramı, cövkən atüstü oyunu, qadın baş geyimi olan kəlağayı təşkilatın Bəşəriyyətin Qeyri-maddi mədəni irs üzrə Reprezentativ siyahısına daxil edilmişdir.

Şübhəsiz, tarixi Xan sarayının və iki min ilə yaxın tarixi olan Şəki şəhərinin mərkəzi hissəsinin UNESKO-nun Ümumdünya Maddi İrs Siyahısına salınması ilk növbədə ötən illərdə Azərbaycanın təşkilatla münasibətlərinin yüksək səviyyədə qurulduğunu, qarşılıqlı faydalı əlaqələrdən ölkəmizin mənafelərinə uyğun səmərəli istifadə olunduğunu göstərir. 180-dən çox ölkədən 2500 nəfərdən çox nümayəndənin iştirak etdiyi sessiyada qəbul olunan tarixi qərar ilk növbədə Azərbaycanın təkcə paytaxtının deyil, regionlarının da malik olduğu zəngin maddi-mənəvi irsin dünya mədəni inciləri kimi qəbul olunduğunu, yüksək qiymətləndirildiyini göstərir. Bu qərar həm də onu göstərir ki, UNESKO Azərbaycanda aparılan islahatları, o cümlədən mədəni irsin qorunması sahəsindəki ardıcıl siyasəti izləyir və təqdir edir. İkitərəfli əlaqələrin son 15 ildə yüksək səviyyədə qurulmasında, respublikamızın təşkilat daxilində maraq və mənafelərinin layiqincə təmin edilməsində Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevanın xidmətləri də xüsusi qeyd olunmalıdır.

Heydər Əliyev Fondunun rəhbəri, UNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın xeyirxah, nəcib və savab əməlləri də müsəlman dünyasında yüksək dəyərləndirilmişdir. İslami inanclara və milli-mənəvi dəyərlərə yüksək həssaslıq nümayiş etdirən Azərbaycanın birinci xanımının fəaliyyəti İslam Konfransı Təşkilatına üzv dövlətlər tərəfindən daim təqdir edilir. 2006-cı ildə Mehriban xanım Əliyevanın İslam Ölkələri Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ISESCO) xoşməramlı səfiri adına layiq görülməsi bütövlükdə Azərbaycanın qazandığı böyük nailiyyət olmuşdur. Qürur doğuran haldır ki, ISESCO-nun xoşməramlı səfiri adı qadınlar arasında ilk dəfə məhz Mehriban xanım Əliyevaya verilmişdir.

Fondun vitse-prezidenti və Moskva nümayəndəliyinin rəhbəri Leyla xanım Əliyevanın İslam Konfransı Təşkilatının Gənclər Təşkilatı ilə əməkdaşlıq çərçivəsində "Xocalıya ədalət!" kampaniyasına start verməsi də bəşər tarixində ən dəhşətli cinayətlərdən olan Xocalı soyqırımı ilə bağlı həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq məqsədi daşıyır. Bu kampaniya İKT Gənclər Forumunun Mədəniyyətlərarası Dialoq üzrə baş koordinatoru Leyla Əliyevanın 2008-ci il mayın 8-də irəli sürdüyü təşəbbüs əsasında həyata keçirilir. Tunisdə ISESCO-nun Baş Assambleyasının 10-cu sessiyasında imzalanmış protokol "Xocalıya ədalət!" Beynəlxalq Məlumat Təşviqat kampaniyasına dəstək verilməsini və dünya miqyasında təhsil, elm və mədəniyyət sahələrində birgə tədbirlərin həyata keçirilməsini nəzərdə tutur. Aksiyanın əsas məqsədi beynəlxalq birliyi Xocalı faciəsi haqda ədalətli məlumatlandırmaqdır. Bu məqsədlə son illərdə dünyanın bir çox ölkəsində "Xocalıya ədalət!" veb-saytının təqdimetmə mərasimləri keçirilmişdir.

Bundan əlavə, İslam Konfransı Təşkilatına üzv ölkələr fondun Rusiya nümayəndəliyinin təşəbbüsünü dəstəkləyərək 26 Fevral - Xocalı Soyqırımı Gününün "Humanitar Fəlakətlər Qurbanlarının Xatirəsini Anma Günü" kimi qeyd olunması barədə qərar qəbul etmişlər. 2009-cu ildən 26 Fevral tarixi İslam Ölkələrində Humanitar Fəlakətlər Qurbanlarının Xatirəsini Anma Günü kimi geniş miqyasda qeyd olunur.

Həm UNESKO, həm də ISESCO ilə qurulmuş yüksək əlaqələr onu deməyə əsas verir ki, Azərbaycanın sivilizasiyalar və mədəniyyətlərarası dialoqla bağlı nümunəvi dövlət qismində çıxış etməsi, Qərblə Şərq, Qərblə İslam dünyası arasında önəmli, etibarlı bir körpü rolu oynaması və bununla bağlı dünyada müsbət düşüncənin formalaşmasında Azərbaycan Prezidenti cənab İlham Əliyevlə yanaşı, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevanın da böyük xidmətləri vardır.

Hələ 2008-ci ildə Bakıda Mehriban xanım Əliyevanın təşəbbüsü, UNESKO-nun və ISESCO-nun dəstəyi ilə keçirilən "Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişləndirilməsi" mövzusunda Beynəlxalq Bakı Forumu sivilizasiyalararası dialoq, fərqli mədəniyyətlər arasında ortaq təmas nöqtələrinin tapılması, ümumbəşəri konsolidasiya prosesində qadınların rolunun araşdırılması, bu yönümdə konkret fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsi baxımından vacib əhəmiyyət kəsb etmişdir. Bu forum Mehriban xanım Əliyevanın şəxsində müasir Azərbaycan qadınının qlobal proseslərdə fəal iştirakını və təşəbbüskarlığını bütün dünyaya aşkarlamışdır. Bakı forumu həm də fərqli mədəniyyətlərin dialoqu prosesində qadınların rolunun araşdırılması və ümumi səylərinin bu yöndə səfərbər olunması, nəcib, humanist təşəbbüslərin dəstəklənməsi məqsədi daşımışdır.

Son illər Heydər Əliyev Fondunun təşəbbüsü, UNESKO və ISESCO-nun iştirakı ilə Bakıda təşkil olunmuş yüksəksəviyyəli beynəlxalq tədbirlərdə dünyada sülh və sabitliyin möhkəmləndirilməsi, mədəniyyətlərarası dialoqun, dini-etnik tolerantlığın genişləndirilməsi, qadın hüquqlarının qorunması, savadsızlığın, irqi və dini ayrı-seçkiliyin aradan qaldırılması kimi nəcib ideyalar üstünlük təşkil etmişdir.

Heydər Əliyev Fondunun prezidentinin mədəniyyətlərarası dialoq və əməkdaşlığın vacibliyi ilə bağlı fikirləri də diqqətçəkicidir: *"Azərbaycanda tolerantlığın, dözümlülüyün, dünya mədəniyyətlərinin rəngarəngliyinə hörmətin çox qədim və çox möhkəm kökləri vardır. Əsrlər boyu Azərbaycan Şərqlə Qərb arasında körpü rolunu oynamışdır. Xalqımızın ən gözəl xüsusiyyətlərindən biri bütün millətlərə, bütün dinlərə, bütün mədəniyyətlərə böyük hörmətlə yanaşmasıdır. Hesab edirəm ki, bugünkü gərgin dünyada bu, çox gözəl və böyük bir sərvətdir. Biz inanırıq ki, yalnız dözümlülük vasitəsilə insanları bir araya gətirmək olar. Biz buna səy göstəririk"*.

2015-ci ildə ilk Avropa Oyunları, 2016-2019-cu illərdə isə "Formula-1" yarışları zamanı da respublikamız nümayiş etdirdiyi yüksək təşkilatçılıq, qonaqpərvərlik nəticəsində Avropanın təkcə iqtisadi deyil, mənəvi-intellektual, mədəni baxımdan zəngin, multikultural ölkəsi olduğunu sübuta yetirmişdir. Bu tədbirlərin hər birinin yüksək səviyyədə keçirilməsi ölkə başçısı cənab İlham Əliyevin diqqət və qayğısı ilə yanaşı, Heydər Əliyev Fondunun prezidenti, UNESKO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın yüksək təşkilatçılığı, kreativ idarəetmə üslubu, ən başlıcası, Azərbaycanı dünyaya sivil, müasir, inkişaf edən dövlət kimi təqdim etmək məramının nəticəsi idi. Təsadüfi deyil ki, dövlət başçısının IV İslam Həmrəyliyi Oyunlarına hazırlıq məqsədilə yaratdığı komissiyaya da Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva rəhbərlik etmişdir. "Evrovizion" musiqi yarışmasında və ilk Avropa Oyunlarında olduğu kimi, IV İslam Həmrəyliyi Oyunlarına hazırlıq da xüsusi plan üzrə, sistemli və ardıcıl şəkildə, yüksək zövqlə həyata keçirilmişdir.

Ümumiyyətlə, Heydər Əliyev Fondunun fəaliyyətində sivilizasiyalar arasında ən mühüm problemlərdən biri olan multikulturalizm məsələsi önəmli yerlərdən birini tutur. Son illərin ən funksional terminlərindən olan "multikulturalizm" anlayış baxımından, əslində, qədimlərə gedir. Bu anlayışın mahiyyətində cəmiyyəti daha çox ədalət, mərhəmət kimi ümumbəşəri ideyalara təşviq etmək cəhdləri də var. Multikulturalizm elə bir siyasətdir ki, o, mədəni plüralizmi qəbul edir və onun inkişafına şərait yaradır. Bu, ölkə əhalisinin etnik irqi və dini müxtəlifliyindən asılı olmayaraq, onların hamısının hüquq və azadlıqlarına hörmətlə əlaqədardır.

Dünyanın çoxmillətli dövlətlərindən olan Azərbaycan dövləti də hər bir azərbaycanlının vətənidir. Azərbaycan Respublikasında kompakt şəkildə müxtəlif etnosların nümayəndələri yaşayır və onların hər biri öz maddi və mənəvi mədəniyyətini, dilini, tarixi yaddaşını, mentalitetini, etnik özünüdərketmə və etnopsixologiyasını qoruyub saxlayan unikal xüsusiyyətlərin daşıyıcılarıdır. Ölkəmizdə müxtəlif dinlərə, millətlərə, etnik azlıqlara məxsus xalqlar sülh və əmin-amanlıq şəraitində yaşayırlar. Dövlət onlara öz adət-ənənələrini, dillərini qoruyub saxlamaq üçün bütün şəraiti yaratmışdır. Etnik azlıqlara da tam bərabər mədəni hüquqlar və ölkənin mədəni irsindən istifadə hüququ verilmişdir.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın qeyd etdiyi kimi: *"Yüksək dərəcədə dözümlülük, ümumbəşəri dəyərləri milli dəyərlərlə uzlaşdırmaq qabiliyyəti, mədəni və dini müxtəlifliyə hörmət - bütün bunlar Azərbaycan xalqının əsrlər boyu formalaşmış xasiyyətini təşkil edir"*.

Son illərdə Bakıda keçirilmiş Bakı Beynəlxalq Humanitar forumları müxtəlif ölkələrin dövlət siyasətində multikulturalizmin mövqe və imkanlarının bir daha təhlilinə, etnik və mədəni özünüdərk arasında azad seçimin təmin olunmasına, azadlıq, bərabərlik və dözümlülük kimi təməl dəyərlərin cəmiyyətdə bərqərar olmasına yönələn qlobal miqyaslı tədbirlər olaraq, dünyanın ən yeni tarixinə əhəmiyyətli hadisə kimi daxil olmuşdur. Bütün bu nailiyyətlərin əldə olunmasında, bəşəriyyət üçün müstəsna əhəmiyyət kəsb edən bu cür təşəbbüslərin irəli sürülməsi və uğurla reallaşmasında Azərbaycan Prezidenti İlham Əliyevlə yanaşı, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın da müstəsna xidmətləri vardır.

Ölkəmizdə tolerantlıq ənənələrinin qorunması işinə xüsusi əhəmiyyət verən Heydər Əliyev Fondu "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsini də uğurla həyata keçirir. Layihə çərçivəsində Bakıdakı Pravoslav kilsəsində təmir-bərpa işləri aparılmış, eyni zamanda "Or-Avner" Beynəlxalq Fondu ilə birgə Bakıda yaşayan yəhudi uşaqları üçün 600 yerlik təhsil mərkəzi inşa edilmişdir. Fondun rəhbərinin vurğuladığı kimi: *"Dini multikulturalizm köklərinə malik ölkə kimi Azərbaycan qlobal arenada bu dəyərlərin təşviqi üçün vacib rolunu oynamağa hazırdır. Ölkəmiz müxtəlif dini, mədəni və tarixi abidələrin qorunub saxlanmasına da öz töhfəsini verir"*.

Heydər Əliyev Fondunun təşəbbüsü ilə bərpa işləri aparılmış dini abidələrdən biri də Binə qəsəbəsindəki Möhsün Səlim məscidi olmuşdur. Binə qəsəbəsində yerləşən Möhsün Səlim məscidinin qəza vəziyyətində olması barədə qəsəbə ağsaqqallarının müraciətindən sonra bina memarlıq üslubu qorunub saxlanılmaqla əsaslı təmir edilmişdir. Eyni zamanda, Heydər Əliyev Fondunun dəstəyi ilə Gəncə şəhərindəki Həzrəti Zeynəb məscidi yenidən qurulmuş, Buzovna qəsəbəsindəki Cümə məscidində yenidənqurma işləri uğurla başa çatdırılmışdır.

Təkcə azərbaycanlılara deyil, milli azlıqlara, digər səmavi dinlərin nümayəndələrinə məxsus tarixi abidələrin də eyni həssaslıqla qorunub saxlanılması, restavrasiya olunması xalqımızın yüksək tolerantlığını və multikultural dəyərlərə sadiqliyini nümayiş etdirir. Şəki şəhərinin Kiş kəndində yerləşən qədim alban apostol kilsəsinin də dövlət əhəmiyyətli tarixi abidə kimi mühafizə olunması bunu bir daha sübut edir.

Heydər Əliyev Fondunun rəhbəri, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva tolerantlıq və multikulturalizm sahəsində həyata keçirilən layihələrdən danışarkən demişdir: *"Yarandığı ilk gündən Heydər Əliyev Fondu nəinki Azərbaycanın, eləcə də ümumdünya mədəni irsinin qorunmasına böyük əhəmiyyət verir. Biz bir sıra iri layihələr həyata keçirmişik. Bizim "Azərbaycan - tolerantlığın ünvanı" layihəmiz var. Bu layihə çərçivəsində həm müsəlman məscidləri, həm də xristian kilsəsi bərpa edilib, Azərbaycanda yaşayan yəhudi uşaqları üçün məktəb və mədəni mərkəz inşa olunub. Avropada biz Versal sarayının memarlıq abidələrinin, kafedral kilsənin vitrajlarının bərpasında, bir sıra digər layihələrdə də iştirak etmişik"*.

Heydər Əliyev Fondunun tolerantlıq və multikulturalizm konsepsiyası çərçivəsində respublikamız Pakistanın Müzəffərabad regionunda 2005-ci ildə zəlzələ nəticəsində dağılmış qızlar üçün məktəbin yenidən tikilməsi; Romada qədim Marçellinio və Pietro katakombalarının bərpası; Versal sarayının parkında tarixi abidələrin bərpası; Bosniya və Herseqovina, Gürcüstan, Macarıstan, Rumıniya, Rusiya və Serbiyanın bir sıra şəhərlərində məktəblərin, məscidlərin, kilsələrin, reabilitasiya mərkəzlərinin, tibb ocaqlarının və istirahət parklarının tikintisi; Fransanın Aşağı Normandiya regionunda 20-yə yaxın yerli kilsənin; Strasburq Soborunda şüşə vitrajların bərpası; Vatikanın Apostol Kitabxanasında qədim əlyazmaların bərpası və rəqəmsal formata salınması, Vatikan muzeylərində bir sıra abidələrin bərpası; Luvr muzeyində İslam incəsənəti şöbəsinin yaradılması; Bolqarıstanın Veliko Tırnovo şəhərində Trapezitsa Memarlıq Muzeyi Qoruğunun bərpası; Almaniyanın Berlin kilsəsinin bərpası; İtaliyada, Romada Kapitoli Muzeyində Filosoflar zalının bərpası prosesində yaxından iştirak etmişdir.

Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyinin çoxşaxəli fəaliyyətində də mədəniyyətlərarası dialoq, tolerantlıq, multikulturalizm məsələlərinə xüsusi diqqət yetirilir. Fondun Rusiya nümayəndəliyinin rəhbəri Leyla xanım Əliyevanın dəstəyi ilə Moskvada "Qloballaşma şəraitində mədəniyyətlərin dialoqu. Bakı forumu" kitabının çapdan çıxması Azərbaycan reallıqlarını özündə ehtiva edən fakt kimi böyük diqqət və maraqla qarşılanmışdır. 2012-ci ilin noyabrında Londonda Leyla xanım Əliyevanın təşəbbüsü ilə keçirilən "Avropa multikulturalizminin perspektivləri: Dinlərarası dialoq və dini tolerantlığın Azərbaycan modeli" mövzusunda konfrans Azərbaycanın bütün dünyada sülhün, firavanlığın təmsil olunması yönündə həyata keçirdiyi siyasətə sanballı töhfə olmuşdur.

Xüsusi vurğulamaq istərdik ki, Azərbaycan Prezidenti cənab İlham Əliyevin 21 fevral 2017-ci il tarixli sərəncamı ilə Heydər Əliyev Fondunun prezidenti, UNESKO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın Azərbaycan Respublikasının Birinci vitse-prezidenti vəzifəsinə təyin edilməsi ölkədəki genişmiqyaslı islahatların tələbindən irəli gələn və cəmiyyətin mənafeyini özündə ehtiva edən tarixi qərar olmuşdur. Hazırda cəmiyyətdə mütləq çoxluğun birmənalı qənaəti budur ki, Heydər Əliyev Fondunun prezidenti olaraq vətənpərvər fəaliyyəti, humanizmə, mərhəmətə, nəcibliyə söykənən layihələri ilə böyük nüfuz qazanmış və yüksək idarəçilik keyfiyyətlərini təsdiqləmiş Mehriban xanım Əliyeva son iki ildə üzərinə götürdüyü məsuliyyətli missiya ilə ölkə başçısının və xalqın etimadını tamamilə doğruldur.

Nəcib və xeyirxah əməllərinə görə Mehriban xanım Əliyeva ötən illərdə müxtəlif beynəlxalq mükafatlara, fəxri adlara, təltiflərə layiq görülmüşdür.

*Fondun son 15 ildə həyata keçirdiyi layihələr milli xüsusiyyətlər, yerli tələb və ehtiyaclarla çuğlaşaraq maraqlı və rəngarəng forma almışdır. Fond hansısa ayrıca götürülmüş sahənin inkişafı naminə fəaliyyət göstərmir - xeyriyyəçilikdən tutmuş ölkənin səhiyyə və təhsil sisteminin, mədəniyyət və incəsənətinin inkişafı, insan hüquqlarının qorunması, Azərbaycanın beynəlxalq aləmdəki imicinin formalaşmasına qədər müxtəlif sferalarda məhsuldar fəallıq nümayiş etdirir. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyeva üzərinə götürdüyü çətin, fəqət xoşməramlı missiyasını layiqincə davam etdirir. Bu fəaliyyəti ilə o, həm də həyatının mənasını insanlara təmənnasız köməkdə, xeyirxah və nəcib əməllərdə axtaran, bəşəriyyətin nicatı, xilası üçün çalışan nəcib insanlarla bir sırada dayanır.*

***Mübariz QURBANLI,***
***Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri,***
***YAP icra katibinin müavini***

# Azərbaycan Avtomobil Federasiyasının təşkilatçılığı ilə klassik avtomobillərin yürüşü və sərgisi keçirilib











Azərbaycan Avtomobil Federasiyasının təşkilatçılığı ilə Bakıda növbəti dəfə klassik avtomobillərin yürüşü və sərgisi təşkil olunub.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın və bir çox tanınmış şəxslərin izlədikləri yürüşdə 1980-ci ilədək istehsal olunmuş avtomobillər iştirak edib. Onların arasında yürüş üçün qeydiyyatdan keçmiş şəxsi nəqliyyat vasitələri, eləcə də Heydər Əliyev Mərkəzində nümayiş etdirilən klassik avtomobil sərgisinin eksponatları sırasında olan nəqliyyat vasitələri də yer alıb.

Heydər Əliyev Mərkəzinin qarşısından start götürən yürüşdə 100-dən çox klassik avtomobil iştirak edib. Bu avtomobillərin hamısının olduqca maraqlı tarixi var. Həmin avtomobillər dövrünün müasiri olsa da, zaman keçdikcə onların tarixi dəyəri daha da artır.

Yürüşə gələn tamaşaçılardan Dadaş Ağalarov doğma Bakıda belə tədbirlərin keçirilməsindən məmnun qaldığını bildirib. "Yürüşə kiçik oğlumla gəlmişəm. Oğlum da, mən də avtomobilləri, xüsusilə də retro avtomobilləri çox sevirik. Bu maraqlı tədbirdə ilk dəfədir ki, iştirak edirəm. Çox xoşuma gəldi və sərgi də yüksək səviyyədə təşkil olunub. Düşünürəm ki, retro avtomobillər hər kəsin maraq dairəsindədir. Bu avtomobillər insanda nostalji hisslər yaradır. Belə tədbirlərin təşkili avtomobil həvəskarlarının bir yerə toplaşaraq fikir mübadiləsi aparmaları, asudə vaxtlarını səmərəli keçirmələri üçün çox əhəmiyyətlidir", - deyə D.Ağalarov söyləyib.

İştirakçı Rauf Əzizov deyib: "Retro maşınlara 15 ildən çoxdur ki, həvəs göstərirəm. Bu həvəs məndə artıq bir hobbiyə çevrilib. Sərgiyə özümün yığdığım iki maşınla - "Zaporojets" və "Moskviç"lə gəlmişəm. Hazırda Volqa "Qaz-21" avtomobilinin üzərində işləyirəm. Sərgidə nümayiş olunan "Zaporojets" 1965-ci ilin istehsalıdır. "Moskviç" 427 furqon isə bağ həvəskarlarının ən çox sevdiyi maşın idi. Retro avtomobillərin sərgisi və yürüşünün təşkilinin gənclərimizin zərərli vərdişlərdən uzaqlaşaraq sağlam həyat tərzinə cəlb edilməsində böyük rolu var".

### Azərbaycanda klassik avtomobillərə çox böyük maraq var

Yürüş iştirakçısı Vaqif Quliyev tədbirə 1958-ci il istehsalı olan "Zaporojets" markalı maşınla qatılıb.

"Həmişə Azərbaycan Avtomobil Federasiyasının təşkil etdiyi tədbirlərdə fəal iştirak edirəm. Bu tədbiri alqışlayıram. Klassik avtomobillərin sərgisi və yürüşü zamanı retro avtomobil sahibləri bir araya gəlir, fikir mübadiləsi aparırlar. Avtomobilimdən ancaq belə sərgi və yürüşlərdə istifadə edirəm. Hazırda dostumun xahişi ilə "Moskviç-403" modeli üzərində işləyirəm. Bir sözlə, retro avtomobillər mənim hobbimdir", - Vaqif Quliyev belə deyib.

Klassik avtomobil sahibi olan Zaqatala rayon sakini Azər İmamov 1958-ci il istehsalı olan və babasından ona yadigar qalan "SMZ S-3A" markalı avtomobili üç ilə yığdığını və tədbirə bu avtomobillə qatıldığını bildirib. O qeyd edib ki, avtomobilin detallarını Rusiya, Gürcüstan və başqa ölkələrdən əldə edib. "Tədbir möhtəşəmdir və insanlar böyük həvəslə buraya maşınlara baxmağa gəlirlər", - deyə A.İmamov qeyd edib.

### Sərgi gənclər üçün də maraqlıdır

"Moskviç" klubunun rəhbəri Əlirza Əliyev avtomobillərin yürüşü və sərgisinin böyük bayrama çevrildiyini deyib. "İnsanlar böyük maraqla avtomobillərə yaxınlaşıb tarixi ilə maraqlanırlar. Düşünürəm ki, bu tədbir yaşlı nəslin nümayəndələri ilə yanaşı, gənclər üçün də çox maraqlıdır. Gənclər bu tədbirə böyük həvəslə qatılırlar. Klubumuz bu yaxınlarda fəaliyyətə başlayıb. Gələcəkdə sərgiyə daha çox avtomobillə qatılmağı planlaşdırırıq".

Bu tədbirə şəhər sakinləri ilə yanaşı, paytaxtımıza gələn turistlərin də marağı böyük idi. Klassik avtomobillərin yürüşü və sərgisi şəhərimizin qonaqlarında unudulmaz təəssüratlar yaradıb. Moskvadan gəlmiş Nikolay Timofeyev sərgidə sovet istehsalı olan çoxsaylı retro avtomobillərin olmasından məmnun olduğunu bildirib: "Yürüş, eləcə də burada iştirak edən avtomobillər çox xoşumuza gəldi. Həm bu tədbirdə, həm də ümumiyyətlə, şəhərdə çox səmimi münasibət görürük. Çox yüksək səviyyədə təşkil olunan sərgi klassik avtomobillərə yeni həyat verir".

Paytaxt sakinləri deyirlər ki, bu sərgi və yürüş Bakının həyatında əsl bayramdır. Bu avtomobillər xüsusən onları görməyən gənclərdə daha çox maraq doğurur.

Avtomobillər şəhərin müasirliklə qədimiliyin vəhdət təşkil etdiyi mərkəzi küçələri və prospektləri ilə yürüşdən sonra Heydər Əliyev Mərkəzinin parkında nümayiş olunub.

Yürüş-sərgidə "Ford Model A" (1930), "Fiat Balilla" (1933), "Mercedes Benz 220 B Cabrio" (1952), "Chevrolet Corvette" (1960), "Cadillac Eldorado" (1974), "VAZ 21011" - milis (1973), "Qaz 13" - Çayka (1975) və sair kimi nadir nümunələr iştirak edib.

Bakı sakinləri və qonaqlar nadir avtomobil modellərini maraqla izləyiblər.

Tədbir çərçivəsində keçirilən klassik geyimlərin müsabiqəsi də tamaşaçılar tərəfindən coşqu ilə qarşılanıb.

Klassik avtomobillər və ötən illərin libasları modern Bakıda nostalji ovqat yaradıb.

# Prezidentin paytaxt qəsəbələrinin inkişafı ilə bağlı tapşırığı uğurla icra olunur

Ölkə rəhbərinin tapşırığına uyğun olaraq Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizovun paytaxtın qəsəbələrində keçirdiyi əhali ilə görüşləri çərçivəsində Suraxanı rayonu Hövsan qəsəbəsində sakinlərin problemlərinin öyrənilməsi və aradan qaldırılması məqsədilə növbəti toplanış da əhəmiyyətli olmuşdur.





Qeyri-iş günü və havanın çox isti olmasına baxmayaraq, yüzlərlə sakinin, həmçinin qonşu qəsəbələrin nümayəndələrinin iştirakı ilə təşkil olunan görüşdə Bakı Şəhər İcra Hakimiyyətinin başçısı ilə yanaşı Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı İlqar Abbasov, paytaxtın və Suraxanı rayonunun müvafiq təsərrüfat və xidmət sahələrinin rəhbərləri də iştirak edərək sakinlərin müraciət və təkliflərini ayaq üstə dinləmişlər. Bu, sakinlərin xüsusi rəğbəti ilə qarşılanmışdır.

Əvvəlcə Suraxanı Rayon İcra Hakimiyyəti başçısının Hövsan qəsəbəsi üzrə nümayəndəsi Ağasəlim Əliyevin qəsəbədə görülmüş işlərlə bağlı hesabatı dinlənilmişdir.

Sakinlərin böyük fəallığı, yaradılan səmimi ab-hava şəraitində və ənənəvi "Açıq mikrofon" formatında keçən görüşdə çıxış edən Hövsan sakinləri Bakı şəhərində, eyni zamanda Hövsan qəsəbəsində görülən işlərə, onlara göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildirmiş, onun həyata keçirdiyi siyasi kursa birmənalı dəstək ifadə etmişlər.

Görüşdə söz alan qəsəbə sakini Kəmaləddin Qədimov qəsəbənin sosial-iqtisadi inkişafındakı xidmətlərinə, burada təhsil, səhiyyə və mədəniyyət obyektlərinin tikintisi və təmirinə göstərdiyi diqqət və qayğıya görə ölkəmizin Birinci vitse-prezidenti Mehriban Əliyevaya minnətdarlıqlarını bildirmiş və fürsətdən istifadə edərək Mehriban xanımı doğum günü münasibətilə təbrik edərək ona gələcək fəaliyyətində uğurlar arzulamışdır. Görüş iştirakçıları yekdilliklə bu təbrikə qoşularaq onu ayaq üstə sürəkli alqışlarla dəstəkləmişlər.

Təbrikə qoşulan Eldar Əzizov qeyd etmişdir: "Bizim tariximiz çox qədim və zəngindir, minillikləri əhatə edir. Mehriban xanım Əliyeva Azərbaycanın çoxəsrlik tarixində yer tutan ən görkəmli xanımlardan biridir. O, özünün çoxşaxəli fəaliyyəti ilə ölkəmizdə və Şərq aləmində yeni siyasi mədəniyyəti təsdiq edib".

Sakinlər qarşısında çıxış edən Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov bildirmişdir ki, bu gün paytaxtımız sürətlə inkişaf edir və müasir görkəm alır. O vurğulamışdır ki, Prezident İlham Əliyevin siyasəti ümumxalq xarakterlidir və bu istiqamətdə atılan hər bir addımın təməlində vətəndaş amili dayanır. Cənab Prezidentin dövlət qurumlarının rəhbərləri qarşısında qoyduğu əsas tələb vətəndaşların problemlərinin həllinə öz problemləri kimi yanaşmaqdır. Paytaxtda aparılan genişmiqyaslı quruculuq və abadlıq işlərindən danışan Eldar Əzizov bildirmişdir ki, dövlət başçısı qarşıya paytaxtın qəsəbələrinin daha da inkişaf etdirilməsi ilə bağlı tapşırıq qoyub.

Maraqlı dialoq şəklində keçmiş görüşdə 31 nəfər sakin çıxış etmiş, onları narahat edən məsələlər dinlənilmiş, müvafiq tapşırıqlar verilmişdir. Müraciətlər əsasən fərdi yaşayış evlərinin sənədləşdirilməsi, su və kanalizasiya xətlərinin yenilənməsi, məhəllədaxili yolların təmiri və işıqlandırılması, sahibsiz heyvanların yığışdırılması, qəsəbədə yeni uşaq bağçası və məktəb üçün əlavə tədris korpusunun tikintisi və s. olmuşdur. Bütün müraciət və təkliflər nəzarətə götürülmüşdür.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Gənc sərhədçilər vətənə sədaqət andı içiblər

Dövlət Sərhəd Xidmətinin (DSX) Yevlaxdakı hərbi hissəsində gənc əsgərlərin andiçmə mərasimi keçirilib.



Gənc əsgərlər təntənəli şəkildə hərbi anda gətirildikdən sonra mərasim açıq elan edilib.

Andiçmə mərasimində çıxış edən DSX-nin Çevik Hərəkət Qüvvələrinin Komandanı, general-leytenant Ehram Hacıyev Xidmət rəisi, general-polkovnik Elçin Quliyevin təbrikini şəxsi heyətə çatdırıb, gənc əsgərlərin dövlət sərhədlərinin etibarlı mühafizəsini şərəflə yerinə yetirəcəklərinə əminliyi ifadə edib. E.Hacıyev Ulu Öndər Heydər Əliyevin dövlət sərhədlərimizin qorunması, Azərbaycan sərhəd mühafizəsinin formalaşması və inkişafı istiqamətindəki xidmətlərini, böyük dövlət xadiminin müəyyənləşdirdiyi milli sərhəd strategiyasının Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsi sayəsində ölkəmizin sərhəd mühafizəsinin ən müasir tələblər səviyyəsinə qaldırılmasını xüsusi qeyd edib. Həmçinin Ermənistanla dövlət sərhədinin Qazax və Ağstafa rayonlarının ərazisindən keçən hissəsinin DSX tərəfindən mühafizəyə götürülməsi tapşırığının müvəffəqiyyətlə yerinə yetirilməsi, səngərdə və sərhəddə sərhədçilərimiz tərəfindən qürurla xidmət aparılması xüsusi vurğulanıb.

Valideynlər çıxışlarında yaradılmış şəraitə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə minnətdarlıqlarını bildirib, övladlarını təbrik edərək vətən sərhədlərinin keşiyində ayıq-sayıq dayanmağı tövsiyə ediblər.

Mərasim gənc əsgərlərin təntənəli marşla tribuna önündən keçidi ilə başa çatıb.

Andiçmə mərasimi başa çatdıqdan sonra valideynlərlə görüş keçirilib, onları maraqlandıran suallar cavablandırılıb.

# Bölgələrdə yanğınların söndürülməsində 900 nəfərdən çox canlı qüvvə iştirak edib

Son günlər bölgələrdə mürəkkəb relyefli dağlıq ərazilərdə baş vermiş yanğınların qarşısının alınmasına Fövqəladə Hallar Nazirliyinin (FHN) Dövlət Yanğından Mühafizə Xidmətinin, Aviasiya dəstəsinin, Mülki Müdafiə Qoşunlarının və regional mərkəzlərinin canlı qüvvə və texnikası cəlb olunub.

FHN-in mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, həyata keçirilmiş operativ tədbirlər nəticəsində Lənkəran, Lerik, Quba, Yardımlı və digər rayonların dağlıq zonalarında meşə və meşəətrafı ərazilərdə baş vermiş yanğınlar tam söndürülüb. Oğuz, Qəbələ, Ağsu, İsmayıllı rayonlarında baş vermiş yanğınların daha geniş ərazilərə yayılmasının qarşısı alınıb və hazırda tam söndürülməsi istiqamətində tədbirlər fasiləsiz davam etdirilir.

Yanğınsöndürmə əməliyyatlarına FHN-in 900 nəfərdən artıq canlı qüvvəsi, 70-ə yaxın texnikası, 4 helikopteri və 1 "BE 200 ÇS" tipli amfibiya təyyarəsi cəlb olunub.

# Azərbaycanın xarici ticarət dövriyyəsində saldo yenə də müsbətdir

## İxrac olunan bir sıra qeyri-neft-qaz məhsullarının həcmi artıb

Azərbaycanın xarici ticarət saldosu həmişə olduğu kimi, yenə də müsbətdir. Ölkədə aparılan iqtisadi islahatlar, iqtisadiyyatın şaxələndirilməsi idxal-ixracın strukturuna da, əməliyyatların coğrafiyasına da müsbət təsir edir. Azərbaycan dövlətinin qeyri-neft-qaz sektorunun inkişafını önə çəkməsi bu sahədə məhsul bolluğu yaratmaq, yeni iş yerləri açmaq kimi vacib məsələlərlə yanaşı, həm də ixracı artırmaq, idxaldan asılılığı azaltmaq kimi mühüm əhəmiyyət daşıyır.



Dövlət Statistika Komitəsinin məlumatında Azərbaycanın hazırkı xarici dövriyyəsi öz əksini belə tapıb.

Bu ilin yanvar-iyun aylarında Azərbaycan Respublikasının hüquqi və fiziki şəxsləri 117 ölkədəki tərəfdaşları ilə ticarət əməliyyatları aparıblar. 103 ölkəyə məhsul ixrac olunub, 164 ölkədən mal idxal edilib.

Gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla 6 ayda xarici ticarət dövriyyəsi 16866,2 milyon dollar, o cümlədən ixracın dəyəri 9850,6 milyon dollar, idxalın dəyəri 7015,6 milyon dollar təşkil edib. Nəticədə 2835 milyon dollarlıq müsbət ticarət saldosu yaranıb.

Keçən ilin birinci yarısı ilə müqayisədə xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 15,2, idxal 50,5 faiz artıb, ixrac 1,4 faiz azalıb. Real ifadədə isə dövriyyə 6,5, o cümlədən idxal 19,6, ixrac 0,4 faiz artıb.

Dövlət Gömrük Komitəsindən daxil olmuş məlumatlara əsasən, xarici ticarət dövriyyəsinin böyük hissəsi - 86,6 faizi İtaliya, Türkiyə, Rusiya, Çin, İsveçrə, Almaniya, Hindistan, İsrail, İspaniya, ABŞ, Kanada, Ukrayna, Fransa, Çexiya, Gürcüstan, Birləşmiş Krallıq, İran, Avstraliya və Portuqaliyanın payına düşüb.

Məhsul idxal etdiyimiz ölkələr İsveçrə, Rusiya, Türkiyə, Çin, ABŞ, Kanada, Almaniya, İran, Ukrayna, Avstraliya, İtaliya, Fransa, Qazaxıstan, Birləşmiş Krallıq, Yaponiya, Belarus və digərləridir.

İdxal etdiyimiz məhsullar isə əsasən maşın və mexanizmlərdən, elektrik cihazlarından, avadanlıqlardan, ərzaq məhsullarından, nəqliyyat vasitələrindən, qara metallardan, plastik kütlədən, əczaçılıq məhsullarından, oduncaqdan, tütün məmulatlarından, mebeldən ibarətdir. İdxalın 42,9 faizini avtomobil, 33,2 faizini hava, 16,1 faizini dəmir yolu, 4,6 faizini dəniz nəqliyyatı ilə gətirilmiş, 3,2 faizini boru kəməri və elektrikötürücü xətləri ilə nəql edilmiş məhsulların dəyəri təşkil edib.

İdxalın tərkibində buğdanın, təzə meyvə və tərəvəzin, şəkərin, bitki yağlarının, kartofun, quş və mal ətinin, minik və yük avtomobillərinin, polad prokatının, mineral gübrələrin, hesablama maşınlarının, blok və qurğuların, məişət kondisionerlərinin, mebellərin, rezin şinlərin, polietilenin, paltaryuyan maşınların, qara metallardan künclüklərin, avtobusların həcmi artıb. Siqaret, kərə yağı, digər süd yağları və pastalar, qara metallardan borular və çubuqlar, sement, məişət soyuducuları isə idxalı azalan məhsullardır. Bu ilin birinci yarısında ölkəyə 16965 minik avtomobili, 1593 yük avtomobili, 101 avtobus gətirilib.

Azərbaycanın məhsul ixrac etdiyi ölkələr sırasında İtaliya, Türkiyə, Çin, Hindistan, Almaniya, İsrail, İspaniya, Rusiya, Çexiya, Gürcüstan, Fransa, Birləşmiş Krallıq, Portuqaliya, Ukrayna, Xorvatiya və başqaları dayanır. İxrac etdiyimiz məhsullar isə əsasən xam neft, təbii qaz, neft məhsulları, meyvə-tərəvəz, plastik kütlə, pambıq lifi və iliyi, alüminium və alüminium məmulatları, kimya sənayesi məhsulları, qara metallar və onlardan hazırlanan məhsullar, alkoqollu və alkoqolsuz içkilər, şəkər, bitki yağları və başqalarıdır. Bu ilin 6 ayında ixrac olunan məhsulların böyük hissəsi - 87,9 faizi boru kəməri və elektrikötürücü xətlərlə nəql edilib. Qalanı avtomobil, dəmir yolu, hava və dəniz nəqliyyatı ilə göndərilib.

Qeyri-neft-qaz məhsullarının istehsalının artması nəticəsində onların çəkisi ixracın strukturunda da artıb. Belə ki, ölkədən göndərilən təzə tərəvəz və meyvənin, şəkərin, tütünün, meyvə və tərəvəz şirələrinin, eləcə də konservlərinin, marqarinin, qida üçün yararlı digər qarışıqların, pambıq lifinin və ipliyinin, polietilenin, qara metallardan yarımfabrikatların, bentonit gilinin həcmi artıb. Kartofun, çayın və bitki yağlarının, təbii üzüm şərablarının və üzüm suslosunun, emal olunmamış alüminiumun və qara metallardan boruların ixracı isə azalıb.

Başqa sözlə, bu ilin birinci yarısında qeyri-neft-qaz məhsullarının ixracı keçən ilin eyni dövrü ilə müqayisədə faktiki qiymətlərlə 15,7, real ifadədə isə 11,1 faiz artıb. Qeyri-neft-qaz məhsulları üzrə ixracın dəyərində Rusiyaya, Türkiyəyə, Gürcüstana, İsveçrəyə, İtaliyaya, Ukraynaya, Yunanıstana, İrana, Çinə və Almaniyaya göndərilmiş malların payı üstünlük təşkil edib.

Bütün bunlardan əlavə, cari ilin yanvar-iyun aylarında ölkəmizə humanitar və texniki yardım şəklində 17,2 milyon dollarlıq müxtəlif məhsullar daxil olub.

***Flora SADIQLI,***
***"Azərbaycan"***





# Təhsil





● Yeni dərs ili qarşısında

**Müasir dövrdə hər bir ölkənin inkişafı ilk növbədə onun təhsilinin səviyyəsi ilə müəyyən olunur. İnkişaf etmiş ölkələrdə davamlı iqtisadi inkişaf insan kapitalının məqsədyönlü fəaliyyəti hesabına əldə edilmişdir. Ümumiyyətlə, bütün dövrlərdə cəmiyyətin tərəqqisi bilavasitə təhsilin inkişafından və ona verilən önəmin əhəmiyyətindən asılı olmuşdur.**

**Azərbaycanda təhsilin yeni ideyalar zəminində inkişafı onun mahiyyət və məqsədinə yeni baxışların formalaşması ilə müşayiət olunur.**



# Qloballaşan dünyaya Azərbaycan həm də təhsil və elmlə qovuşur

## Heydər Əliyev Fondunun təhsilin inkişafında müstəsna xidmətləri və gerçəkləşən layihələri buna hesablanmışdır

"Təhsil sahəsi həyatımızın ən gərəkli, ən mühüm sahəsidir. O, milli məqsədlər, mənafelər əsasında qurulmalıdır" müddəasını strateji vəzifə kimi qarşıya qoymuş Ümummilli Lider Heydər Əliyevin bu deyimini, "Təhsil Azərbaycanın davamlı inkişaf strategiyasının ən öncül istiqamətlərindən biridir" fikirləri ilə tamamlayan, təhsili cəmiyyətin ən vacib sahəsinə çevirən Azərbaycan Prezidenti İlham Əliyev dövlətimizin davamlı inkişafını bilavasitə təhsilin inkişafında görür. Sevindirici haldır ki, Ulu Öndər Heydər Əliyevin təhsil sahəsində qarşıya qoyduğu məsul vəzifələr bu gün Prezident İlham Əliyev tərəfindən çox uğurla davam etdirilir.

Bu istiqamətdə Heydər Əliyev Fondunun da müstəsna xidmətləri var. On beş il öncə yaradılan Heydər Əliyev Fondu ötən müddət ərzində bir çox sahələrdə - mədəniyyət, incəsənət, təhsil və digər sahələrdə çox böyük işlər görüb. Təhsil sahəsində isə fondun təşəbbüsü ilə başlanan "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı ölkə miqyasında geniş vüsət alıb və ondan sonra dövlət xətti ilə 3 min 200-dən çox məktəb tikilib, təmir edilib.

"Məktəbin, müəllimlərin ən əsas vəzifəsi bizim cəmiyyətimizə, xalqımıza, ölkəmizə dəyərli vətəndaşlar hazırlamaqdır. Təhsil millətin gələcəyidir". Ulu Öndər Heydər Əliyevin təhsillə bağlı müdrik, aforizmə çevrilmiş bu fikirlərindən də görünür ki, bu sahənin inkişafı dövlətin humanitar siyasətinin tərkib hissəsidir. Ölkənin təhsil müəssisələrinin yenidən qurulması və hərtərəfli şəraitin yaradılması baxımından paytaxta yaxınlaşdırılması da məhz yuxarıdakı amillərlə bağlıdır. Təhsil sahəsinin inkişafında Heydər Əliyev Fondunun müstəsna xidmətləri və gerçəkləşən layihələri isə xalq tərəfindən birmənalı şəkildə təqdir edilir.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva müntəzəm olaraq istər paytaxtdakı, istərsə də regionlardakı təhsil ocaqlarında olduqdan, buradakı problemləri öyrəndikdən dərhal sonra müəyyən tədbirlər həyata keçirilib ki, bu da ölkənin Birinci xanımının adıçəkilən sahəyə diqqət və qayğısının bariz nümunəsi kimi dəyərləndirilib. Ölkənin elm və təhsil sahəsinin Avropa standartlarına uyğun yeniləşdirilməsi qarşıda duran mühüm məsələlərdən biridir.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın Bakının Sabunçu rayonunun Kürdəxanı qəsəbəsində olarkən Hüseynbala Ağaverdiyev adına 113 saylı tam orta məktəbə baş çəkmələri də təsadüfi deyildi. 6 min nəfərlik qəsəbədə fəaliyyət göstərən orta məktəblə tanışlıqdan məlum oldu ki, iki korpusdan ibarət, ötən əsrin yetmişinci illərində tikilən bu təhsil ocağı müxtəlif illərdə yalnız cari təmir edilib. 1971-ci ildə inşa olunan birinci korpusda sonuncu təmir işləri 2006-cı ildə aparılıb. Tədrisin Azərbaycan dilində aparıldığı məktəbdə ümumilikdə 2320 şagird təhsil alır. Onların təlim-tərbiyəsi ilə 100 müəllim məşğul olur. Məktəbdə darısqallıq olduğu üçün dərslər ikinövbəli keçilir. Məktəbin 2008-ci ildə inşa olunan 2-ci korpusunun da əsaslı təmirə ciddi ehtiyacı var. Birinci vitse-prezident məktəbdə müvafiq təmir-bərpa işlərinin aparılmasının vacibliyini nəzərə alaraq xüsusi göstəriş verdi. Bu, elm və təhsilə dövlət qayğısının təzahürü kimi diqqətdən yayına bilməzdi.

Heydər Əliyev Fondunun irimiqyaslı proqram və layihələrinin həyata keçirilməsi nəticəsində ölkəmizdə təhsilin inkişafında uğurlar və nailiyyətlər davamlı xarakter alıb. Hər il ali və orta ixtisas məktəblərinə qəbulda göstərilən bal göstəriciləri də bunun məntiqi nəticəsidir. Ölkəmizdə təhsil artıq beynəlxalq standartlara uyğunlaşdırılıb. Heydər Əliyev Fondunun təhsillə bağlı həyata keçirdiyi humanitar missiya, eyni zamanda dövlətin yürütdüyü siyasət də buna hesablanıb.

Heydər Əliyev Fondunun təhsillə bağlı həyata keçirdiyi irimiqyaslı layihələrin və nəzərdə tutulan proqramların reallaşması Azərbaycanın qloballaşan dünyaya inteqrasiyasında mühüm məsələdir. 2006-cı ildə "Yeniləşən Azərbaycana yeni məktəb" proqramının 2-ci mərhələsinə start verildikdən sonra bu mərhələyə Bakıətrafı qəsəbələrdəki orta məktəblər də daxil edildi. Təhsilin inkişafına xüsusi diqqət yetirən fond bir daha müasir dünyada hər bir ölkənin inkişafının, onun dünya birliyinə inteqrasiyasının əsasında yalnız mükəmməl təhsilin dayandığını təsdiqlədi. Ölkədə tikilən yeni məktəb binalarının sayı hər biri zəruri infrastrukturla təmin edildi, ən yeni texniki avadanlıqlarla, kompüterlə təchiz olundu.

Heydər Əliyev Fondunun "Təhsilə dəstək" layihəsi də bu qəbildən diqqətçəkəndir. Tədrisin keyfiyyətinin yaxşılaşdırılmasına yönəldilən bu proqram məktəblərin əyani vəsaitlə və şagirdlərin dərs ləvazimatı ilə təmin olunmasına imkan yaradıb. Keçirilən silsilə aksiyalar təhsil sahəsində qarşıya çıxan bəzi problemlərin aradan qaldırılmasında öz müsbət təsirini göstərib. 2004-cü ildən başlayaraq hər il məcburi köçkün ailələrinin birinci sinfə gedən uşaqlarına məktəbli çantaları və dərs ləvazimatı fondun dəstəyi ilə hədiyyə olunub. "Təhsilə dəstək" layihəsində eyni zamanda milli azlıqların təhsilinin inkişafına xüsusi diqqət yetirilir. Həmin layihə çərçivəsində Qax rayonunun Qax-İngiloy kənd orta məktəbinin birinci və ikinci sinif şagirdlərinə gürcü dilində nəşr olunan yeni dərsliklər və məktəb ləvazimatı təqdim edilib.

Fondun prezidenti Mehriban xanım Əliyevanın "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi ilə bağlı ictimaiyyətə ünvanladığı əməkdaşlıq çağırışı da böyük rəğbətlə qarşılandı və qısa zamanda geniş əks-səda doğurdu. Azərbaycanın bölgələrində - dağ kəndlərində, ən ucqar yaşayış məntəqələrində məktəb binalarının tikintisi geniş vüsət aldı. Azərbaycanın birinci xanımı çıxışlarının birində bu layihənin geniş əks-səda doğurmasına belə münasibət bildirib: "Ölkəmizdə çox böyük əks-səda doğuran "Yeniləşən Azərbaycana yeni məktəb" proqramıdır. Biz ilk dəfə bu proqramı təqdim edəndə "dəyirmi masa" keçirmişdik. Çox adam inanmırdı, şübhə ilə yanaşırdı ki, bu necə ola bilər, üç-dörd ay ərzində 132 məktəb tikiləcək, özü də əksəriyyəti ucqar rayonlarda, ölkəmizin dağlıq rayonlarında inşa olunacaqdır. Amma biz sübut etdik ki, əgər inam varsa, iradə varsa, əgər işləri düzgün qurmaq bacarığı varsa, hər bir problem çox qısa bir zamanda öz həllini tapa bilər".

Nəhayət, bu il də ali məktəb qapılarını yüksək balla açan dünənki orta məktəb məzunlarının sayı az olmayıb. Son illər bir qayda olaraq tələbə adını şərəflə daşımaq üçün onlara münbit şəraitin yaradılmasında isə Heydər Əliyev Fondunun müstəsna xidmətləri var. Ölkədə təhsilin daha da inkişaf etdirilməsi fondun əsas fəaliyyət prioritetlərindən sayılır.

***Məhəmməd NƏRİMANOĞLU, "Azərbaycan"***

● Tələbə tribunası

# Özünə inanan gənc

## Əli Məmmədovun fikrincə, nə qədər çox çalışsan, uğura bir o qədər yaxın olarsan

**Cəmiyyətin sağlam təməllər üzərində qurulmasında elmli, bilikli, kreativ gənclərin böyük rolu var. Və ölkəmizdə də sağlam ruhlu gənclərin yetişdirilməsi, bütün sahələrdə potensiallarını nümayiş etdirmələri üçün geniş imkan yaradılır. Zamanında bütün yaradıcı qabiliyyətləri aşkarlamaq və düzgün istiqamətləndirmək yönündə addımlar atılır. Nəticədə işıqlı gənclərimiz üzə çıxır, seçdikləri sahələr üzrə püxtələşərək ölkəmizə, vətənimizə layiqli kadr kimi yetişirlər.**



Gələcəyin ümidli gənclərimizdən biri də builki qəbul imtahanlarında III qrup üzrə 647 bal toplayan Əli Məmmədovdur. Əli Bakı şəhərində anadan olub və 23 nömrəli tam orta məktəbdə oxuyub. Dərslərini əla oxuyan Əli hər zaman məktəbdaxili bilik yarışmalarında iştirak edib və qalibiyyət qazanıb, oxuduğu təhsil müəssisəsinin qırmızı diplomlu məzunu olub.

Yığdığı yüksək balla Bakı Dövlət Universitetinin Hüquq fakültəsini seçən gənc tələbə deyir ki, ailələrinin bütün üzvləri hüquqşünasdır: "Atam, anam, bacım, əmim də hüquqşünasdır və mən də onların yolunu davam etdirmək istəyirəm".

İmtahana hazırlaşdığı müddətdə ailəsinin, xüsusilə də atasının ona psixoloji mənada çox dəstək olduğunu bildirən gələcək hüquqşünas vurğulayır ki, bu, abituriyentlərin yaxşı nəticə qazanmalarında əsas faktorlardan biridir: "Ailəmin bütün üzvləri, ən çox da atam məni dəstəkləyirdi. O həmişə deyirdi ki, universitetə daxil olsan da, olmasan da, canını sıxma, həyat davam edir. Buna görə də mən heç nədən narahat deyildim. Amma onu da deyim ki, atamın bu sözlərindən sonra mən daha çox məsuliyyət hiss edir, daha çox çalışırdım ki, onun əziyyəti yerdə qalmasın. Düşünürdüm ki, mütləq universitetə qəbul olunmalıyam".

Müəllimlərinin də üzərində çox əməyi olduğunu qeyd edən Əli deyir ki, xüsusilə hər zaman sinif rəhbərinin və Azərbaycan dili müəlliminin, riyaziyyatdan onu əlavə hazırlaşdıran müəllimi Rüfət Cəfərovun köməyini və dəstəyini alıb.

Əli deyir ki, bəzən ali məktəbə hazırlıq dönəmində bütün əyləncəni kənara qoymağı, ancaq dərs oxumağı məsləhət görürlər. Amma o, çox oxusa da, idmanı buraxmayıb: "Gecə-gündüz oxuyurdum. Ancaq idmanla da məşğul olurdum. Vaxt ayırıb dostlarımla basketbol, futbol da oynayırdım. Bu, məni daha gümrah saxlayırdı. Ona görə də şagirdlərə tövsiyə edirəm ki, zamanı düzgün bölsünlər. Həm dərslərini vaxtında oxusunlar, həm istirahətə, həm də əyləncəyə vaxt ayırsınlar".

Bütün bunlara baxmayaraq, Əli uğur qazanmaq üçün çox çalışmağın faydalı olduğunu deyir: "Elə vaxt olurdu ki, gecələr də dərs oxuyurdum, yəni xüsusilə də son zamanlar gecə-gündüz dərs oxuyurdum, çox çalışırdım. Buna görə də məndə ali məktəbə qəbul olunacağıma dair əminlik var idi. Bilirəm ki, nə qədər çox çalışsan, uğura da bir o qədər yaxın olarsan. Builki qəbul imtahanı fərqli olsa da, mənim üçün asan idi. Bunu imtahandan qabaq da düşünürdüm. Düzdür, təqdim olunan suallar ənənəvi suallardan çətin olsa da, bunun öhdəsindən gəlməkdə heç bir problemim olmadı. Təbii ki, bütün abituriyentlər kimi, mənim də hədəfim 700 bal idi, amma indi topladığım bal da kifayət qədər yüksəkdir və istədiyim ixtisasa qəbul olunmuşam".

"İmtahanda yüksək nəticəni göstərmək üçün abituriyent hansı öhdəlikləri üzərinə götürməlidir və ixtisas seçimini necə etməlidir" sualını isə Əli belə cavablandırdı: "Uğur qazanmaq üçün ilk növbədə marağın olan qrupu seçməlisən. Çünki qrupunu düzgün seçməsən, artıq zəncir orada qırılır. Daha sonra şagird hazırlaşdığı müəllimlərini də düzgün seçməlidir və valideynlər də uşaqlarının yaxşı oxuya bilməsi üçün əlverişli şərait yaratmalıdır. Məncə, yüksək bal toplayan abituriyentlər ən yüksək qəbul balı olan ixtisasları yox, öz istədikləri, onlar üçün gələcəkdə faydalı olacaq seçimlər etməlidirlər. Bəzən belə hallara rast gəlinir ki, arzuolunan ixtisasın balı digərlərindən daha aşağı olur, abituriyent isə daha yüksək bal toplayır. Bu zaman bir çox abituriyent bala görə seçim edir. Əgər yaxşı bir mütəxəssis olmaq istəyiriksə, biz sevdiyimiz ixtisası seçməliyik".

Əli Məmmədov bakalavr təhsilini BDU-da aldıqdan sonra magistraturanı xaricdə oxumağı və peşəkar kadr kimi yetişməyi hədəfləyir.

Gənc tələbəmizə qarşıda da yüksək nailiyyətlər diləyirik.

***Yasəmən MUSAYEVA, Ağaəli MƏMMƏDOV (foto), "Azərbaycan"***

# Gələcəyin mühəndisi

## Yüksək bal toplayan Ağa Qurbanov neft-qaz sahəsi üzrə peşəkar kadr kimi yetişmək arzusundadır

**"Riyaziyyat fənnini çox sevirəm. Kiçik yaşlarımdan məndə bu elmi öyrənməyə maraq olub. Deyirlər riyaziyyat bütün elmlərin açarıdır, təfəkkür tərzidir. Elə bəlkə də mənim bu gün uğur qazanmağımda bu elmin danılmaz rolu olub".**
**I ixtisas qrupu üzrə builki qəbul imtahanlarında 639.4 bal toplayan Ağa Qurbanov nailiyyətini bizimlə bölüşür. Ağa Qurbanov Bakıda doğulsa da, nənə-babası Zəngilan rayonundan məcburi köçkündür. 6 nömrəli Zəngilan orta məktəbində təhsil alan Ağa hər zaman dərslərini əla oxuyaraq bu təhsil ocağını yüksək qiymətlərlə bitirib.**



Bakı Ali Neft Məktəbinin neft-qaz mühəndisliyi ixtisasını seçən gənc tələbə vurğulayır ki, istədiyi universitetə daxil olduğu üçün özünü xoşbəxt hiss edir: "Hələ IX sinifdə oxuyarkən gələcəkdə bu ali məktəbin tələbəsi olmağı arzulayırdım. Buna görə də həmin dövrdən etibarən ali məktəb haqqında öyrənir, orada təhsil alan dostlardan, tanışlardan məlumat alırdım. Buna görə də əvvəlcədən əmin oldum ki, seçdiyim universitet Azərbaycanda kifayət qədər nüfuzlu təhsil müəssisələrindən biridir. Həmçinin bu ali məktəbi bitirdikdən sonra müvafiq iş tapmaqda çətinlik çəkməyəcəm. Ümumiyyətlə, III, ya da IV kursdan sonra bu universitetdə tələbələri işlə təmin edirlər. Buna görə də düşünürəm ki, bu mənim üçün də çox əlverişli olacaq və seçimim düzdür".

Buraxılış imtahanından 272 bal toplayan Ağa yaz qəbul imtahanı ilə birlikdə cəmi 565 bal toplayır və bu balla istədiyi neft-qaz mühəndisliyi ixtisasına qəbul oluna bilməyəcəyini düşünərək məyus olur, amma ikinci imtahana daha əzmlə çalışmağa başlayır: "Yay imtahanına daha çox səylə çalışdım və 639.4 bal topladım. Valideynlərim hər zaman mənə inanırdı ki, yaxşı nəticə göstərəcəm, onların bu fikri məndə də özünəinam hissi yaradırdı. Nəticələr elan olunanda ailəlikcə çox sevinmişdik".

### Əvvəlcədən qarşıya məqsəd qoyulmalıdır

Ağa deyir ki, bu il qəbul imtahanı bir qədər fərqli idi. Lakin o qədər çətin deyildi, sadəcə diqqət tələb edən suallar var idi: "Düşünürəm ki, bəzi diqqət tələb edən suallar olmasaydı, daha yüksək bal toplaya bilərdim. Əvvəlcə narahat oldum ki, topladığım bu balla istədiyim ali məktəbdə təhsil ala bilməyəcəm. Çünki ötən il ballar çox yüksək idi. Amma bu il ballar aşağı düşdü və bu da sevdiyim ixtisasa yiyələnməyimə kömək etdi".

Gələcəyin mühəndisi onu da bildirir ki, ali məktəbə hazırlıq zamanı müəllimlərindən də böyük dəstək görüb: "Onlar hər zaman mənə inandıqlarını və istədiyim nəticəni əldə edəcəyimə əmin olduqlarını söyləyirdilər. Həmçinin imtahana sistemli hazırlaşmağımda suallarla bağlı düzgün istiqamətə yönləndirirdilər. Xüsusilə də riyaziyyatdan məni hazırlaşdıran müəllimim Rüfət Cəfərovun üzərimdə çox əziyyəti var. Mən müəllimlərimin inamını doğrultmaq üçün daha çox çalışırdım".

Asudə vaxtlarında musiqi dinləməyi, film seyr etməyi, mütaliəni, xüsusilə də detektiv janrda əsərlər oxumağı xoşlayan gənc söyləyir ki, dostları ilə görüşüb zaman keçirməyi də sevir. Həmçinin "sağlam bədəndə sağlam ruh olar" deyimini əldə əsas tutaraq idmana da önəm verir. Uşaqlıqdan cüdo, gimnastika ilə məşğul olub, üzgüçülüyə gedir, bu yaxınlarda isə fitnesə başlayıb.

Əyləncəyə, istirahətə, idmana da dərslərlə paralel zaman ayırmağın vacibliyini vurğulayan tələbə ondan sonra yetişən gənc nəslə uğur qazanmağın sirlərindən danışır: "Uğura aparan yol əzmkarlıq və məsuliyyətdən başlayır. Hər şey çalışqanlıqdan asılıdır. O cümlədən bu günün tapşırığını sabaha saxlamaq olmaz. Hər tapşırığı vaxtında yerinə yetirmək, məsuliyyətli yanaşmaq mütləqdir. Ən ümdə isə əvvəlcədən qarşıya məqsəd qoyulmalıdır. Belə olanda o məqsədə çatmaq üçün daha çox çalışarsan ki, bu da insana əlavə motivasiya verir".

Ağa Qurbanov ali məktəbdə də yüksək səviyyədə bilik əldə edərək peşəkar mühəndis olmaq istəyindədir: "Azərbaycan neft-qaz ölkəsidir və hər zaman arzum olub ki, mən də bu sahə üzrə ixtisaslı kadr kimi yetişim. Çalışacağam ki, peşəkar mühəndis olub, xalqıma xeyirli işlər görüm və bu uğurda əlimdən gələni edim".

***Y.MUSAYEVA, "Azərbaycan"***

● Bölgələrdə

# Heydər Əliyev Fondu Tovuz məktəblilərini sevindirdi

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizdə məktəblərin maddi-texniki bazasının möhkəmləndirilməsinə və bu sahənin inkişafına göstərdiyi diqqət və qayğı təhsilimizin dünya standartlarına uyğun qurulmasına zəmin yaradır.**



Bu istiqamətdə Heydər Əliyev Fondunun həyata keçirdiyi davamlı tədbirlər də əhali tərəfindən rəğbətlə qarşılanır. Xüsusilə hər il Tovuzun kənd məktəblərinin yenilənməsində yaxından iştirak edən fond bu il də ənənəsinə sadiq qalaraq rayonun Aşağı Quşçu və Köhnəqala kənd orta məktəblərində əsaslı təmir işlərini öz üzərinə götürmüşdür.

Hər iki məktəb keçən əsrin 70-ci illərində birtipli layihələr əsasında inşa edildiyindən və uzun illər əsaslı təmir olunmadığından yararsız hala düşmüşdü. Laboratoriya və fənn kabinetləri də tədrisin yüksək səviyyədə keçirilməsinə imkan vermirdi. Hazırda hər iki məktəbdə başlanan təmir işləri zamanı bütün bunlar nəzərə alınmışdır. Açıq idman meydançası, qış mövsümündə sinif otaqlarının isidilməsi üçün qazanxana da quraşdırılacaqdır. Artıq məktəb binalarında əsas işlər başa çatdırılmışdır. İndi siniflərdə suvaq və rəngləmə işləri görülür.

Ümumiyyətlə, Tovuz rayonunda tədrisin keyfiyyətini yüksəltmək üçün orta məktəblərin yenidən qurulmasına diqqətlə yanaşılır. Demək olar ki, hər il rayon məktəblərinin bir neçəsi əsaslı şəkildə təmir edilərək pedaqoji kollektivlərin ixtiyarına verilir. Elə bu il də qəzalı vəziyyətdə olan bir neçə məktəbin dövlət vəsaiti hesabına yenidən tikintisi və əsaslı təmiri aparılır. Hazırda Alakol kəndində inşa olunan 624 şagird yerlik məktəbin tikintisində son tamamlama işləri görülür. Şamlıq və Güvəndik kəndlərində isə modul tipli məktəb binaları quraşdırılır. Bundan başqa, rayon məktəblərinin çoxunda cari təmir işləri də aparılır ki, bu da yeni dərs ilində şagirdlərin səliqə və sahmanlı sinif otaqlarında dərs keçməsinə imkan verəcəkdir.

***Sabir ƏLİYEV, "Azərbaycan"***

● Layihə

# Sumqayıtlı tələbələrin yeni layihəsi

**Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin maliyyə, Sumqayıt Şəhər Gənclər və İdman Baş İdarəsinin təşkilati dəstəyi ilə "Sumqayıt Tələbələri" İctimai Birliyi tərəfindən yeni layihəyə start verilib.**

"İnformasiya texnologiyaları vasitəsilə Dağlıq Qarabağ münaqişəsi zamanı məhv olmuş maddi və mənəvi mədəniyyət nümunələri, tarix və mədəniyyət abidələri haqqında təbliğatın aparılması" layihəsinin təqdimatında çıxış edən "Sumqayıt tələbələri" İctimai Birliyinin sədri Rüfət Mahmudzadə işğal altında olan ərazilərimiz barədə geniş məlumat verib. Bildirilib ki, layihədə məqsəd gənclərin ictimai fəallığının artırılması, internet resurslarından səmərəli istifadə və Qarabağ həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılmasının vacibliyidir. Gənclər ölkəmizin apardığı müharibə, onun problemləri, qarşıda duran məsələlər barədə məlumatlı olmalı, xarici ölkələrə səfərlər və qonaqlarla görüş zamanı mükəmməl xəbər toplusundan bəhrələnib danışmalıdırlar. Eyni zamanda, Qarabağ məsələsi ilə bağlı gənclərin ictimai fəallığını artırmaq, tarixi yurd yerlərimiz barədə həqiqətləri dünya ictimaiyyətinə düzgün çatdırmaq, gənclərin bu və ya digər istiqamətdə rolu və tarixi abidələrimizin qorunmasının vacibliyi qeyd edilib.

Layihənin təqdimatında şəhərin ümumtəhsil müəssisələrinin şagirdləri, peşə, orta ixtisas və ali təhsil müəssisələrinin tələbələri, gənclər təşkilatlarının nümayəndələri, fəal gənclər və kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak ediblər. Gələcəkdə layihə ətrafında daha çox gəncin toplanması üçün vacib məsələlər də müzakirə edilib. Növbəti toplantılara xarici ölkələrdən respublikamızda təhsil alan gənclərin də qatılması məqsədəuyğun sayılıb.

Tədbirdə layihə çərçivəsində görüləcək işlər barədə məlumat tarixçi, ekspert "Ermənistanın Azərbaycana qarşı silahlı təcavüzü və işğalın ağır nəticələri" kitabının müəllifi Ramil Süleymanov tərəfindən verilib.

***Akif ƏLİYEV, "Azərbaycan"***





# Yelkənli qayıqlarda üzən arzular

## Şəhid övladları unudulmaz gün yaşadılar

Şən, hay-küylü bir dəstə uşaq gedirdi. Dillərində vətən nəğməsi, üzlərində gülüş, gözlərində qürur, addımları qətiyyətli. Gedirdilər üzü dənizə tərəf azğın dalğaları, dəli küləyi ram etməyə... Günəşin altında sayrışan ləpələrlə rəqs etməyə, rüzgarla birləşib gələcək xəyallarına, arzularına doğru dənizin ənginliklərinə sarı qanad açmağa...

Bu uşaqlar şəhid övladlarıdır, ana yurdumuz uğrunda canlarından keçən şəhidlərin bizə əmanəti...

Dəniz kənarında Azərbaycan Yelkənli İdman Federasiyasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirilyi və "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyi ilə birgə təşkil etdiyi Aprel döyüşlərində şəhid olan qəhrəmanların övladları üçün "Yelkənli İdmanın bir günü" əyləncəli - maarifləndirici tədbirdə iştirak edirik. Yelkənli İdman Federasiyasının yay məktəbinin bir günü bu dəfə şəhid övladlarının yelkənli idmanla tanış olması, bu idman növünə maraq və istəyin aşılanması, yelkənli qayıqların idarə edilməsi barədə məlumatların verilməsi ilə yadda qaldı. 16 nəfər iştirakçının qatıldığı tədbirdə qonaqlara yelkənli qayıqdan istifadə qaydaları, açıq dənizdə küləklə mübarizə, küləyin istiqamətinin seçilməsi, qayıqların təhlükəsiz idarə edilməsinin sirləri öyrədildi.











### Qəhrəman ataların layiqli davamçıları

"Üzməyi çox xoşlayıram, ona görə də hər zaman dənizə gəlirəm. Amma heç zaman yelkənli qayığa minməmişəm. Düşünürəm ki, xoşuma gəlsə, mən də bu idman növünə yazılaraq onunla məşğul olaram", - deyə şəhid Mühid Orucovun 8 yaşlı oğlu Vüqar söyləyir. Deyir ki, dərslərini əla oxumaqla yanaşı, karateyə də gedir və bu idman növü ilə məşğul olaraq gücünü artırmaq istəyir. Ən böyük arzusu isə böyüyəndə hərbçi olub atasının yolunu davam etdirməkdir.

Əkiz qardaşı Anar isə həkim olmaq niyyətindədir. Onu da əlavə edir ki, dənizdə üzməyi xoşladığı üçün yelkənli qayıqla üzmək də xoşuna gəlib.

Həvəslə məşqçilərin təlimlərinə qulaq asan və yelkən ipinə düyün vurmaq kimi kiçik tapşırıqları dərhal yerinə yetirən şəhid mayor Rasim Məmmədovun oğlu Asimlə söhbət edib arzularını soruşuruq. Qürurla bircə cümlə söyləyir: "Mən də böyüyəndə atamın yolunu davam etdirib hərbçi olacam".

Şəhid Əhməd Abdullayevin övladı Hüseynin də arzusu birmənalı olaraq atasının davamçısı, hərbçi olmaqdır. Hüseyin əyninə xilasedici jilet geyinib yelkənli qayığa minərək təlimçilərin nəzarəti altında dənizdə üzməyə başlayır. O, çox həyəcanlı, həm də sevinclidir: "İlk dəfədir ki, yelkənli qayığa minirəm. Bu çox maraqlıdır. Xoşuma gəldi və məndə maraq oyandı. Ola bilsin ki, mən də bu idman növünə yazılım". Bu isə, Hüseynin yelkənli qayıqla üzdükdən sonrakı təəssüratlarıdır.

### Məqsəd şəhid övladlarının bu idman növünə sevgi aşılamaqdır

Yelkənli İdman Federasiyasının "Laser" və "Optimist" sinifləri üzrə beynəlxalq dərəcəli baş məşqçiləri Seyhun Yıldız və Tuğçə Subaşının təlim-məşqləri iştirakçıların marağına səbəb oldu. Federasiyanın beynəlxalq dərəcəli məşqçilərinin nəzarəti ilə qurumun yığma komandasının üzvləri Aprel döyüşlərində Azərbaycanın ərazi bütövlüyü uğrunda canını fəda edən şəhidlərin övladlarının açıq dənizdə təhlükəsiz şəkildə yelkənli qayıqlardan istifadəsini təmin etdilər. Açıq dənizdə yelkənli qayıqlarla gəzinti, eyni zamanda sahildə əyləncəli oyunların təşkili sevinc və rəğbətlə qarşılandı.

Yelkənli İdman Federasiyasının mətbuat xidmətinin rəhbəri Tural Müseyibov söylədi ki, təşkil olunan tədbirin məqsədi Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını fəda edən şəhid övladlarına bu idman növünə sevgini aşılaya bilməkdir: "Bugünkü tədbir həm əyləncəli, həm də maarifləndiricidir. Məqsədimiz yelkənli idman barədə uşaqlara məlumat vermək, bu idmanı sevdirməkdir. Bəlkə gələcəkdə onlardan hansısa bu idman növünə yönələ, bununla məşğul ola, hətta nailiyyətlər əldə edə bilərlər".

Qurum rəsmisi məlumat verdi ki, aktiv bazası 2014-cü ildən etibarən fəaliyyətə başlayan Yelkənli İdman Federasiyasının əsas məqsədi hər zaman maddi texniki bazanı gücləndirmək, məşqçi korpusunu formalaşdırmaq, Təhsil Nazirliyi ilə birgə əməkdaşlıq çərçivəsində "Optimist" sinfi üzrə 7-14 yaş uşaqları, "Laser" sinfi üzrə isə 14 yaşdan yuxarı yeniyetmələri bu idman növünə cəlb etmək olub: "İdmançıların beynəlxalq yarışlara hazırlıqlarının təkmilləşdirilməsi, federasiyanın yığma komandasının ölkədə və xaricdə təlim-məşq düşərgələrində iştirakı, komanda üzvlərinin yüzlərlə dünya şöhrətli peşəkar idmançının qatıldığı yarışlarda ölkəmizi uğurla təmsil etmələri, onların taktiki biliklərinin artırılması və müxtəlif hava şəraitlərində yarış təcrübələrinin daha da gücləndirilməsi, əldə etdikləri nəaliyyətlər uğurlarımızdır".

Maraqla qayıqların idarə edilməsi təlimini müşahidə edən və yelkənli qayıq idman növünü xoşladığını söyləyən şəhid mayor Ürfan Vəlizadənin qızı Zəhra deyir ki, bu il 6-cı sinifdə oxuyacaq. Dərs əlaçısıdır və böyüyəndə hakim olub qanunlarımızın keşiyində durmaq istəyir: "Mən də atam kimi vətənpərvər olacam. Atam vətənini çox sevirdi, onun uğrunda canından belə keçdi. Mən qürur duyuram ki, elə bir qəhrəmanın qızıyam".

### "Bütün Azərbaycan mənim atamla qürur duyur"

Şəhid polkovnik Vüqar Yusifzadənin qızları Ayan və Aytən də yelkənli qayıq idman növünün ilkin təlimlərini maraqla izləyir, onlara aydın olmayan nüanslarla bağlı suallar verirdilər. Əyinlərinə qoruyucu kostyum geyinib dənizə çıxmaq isə xüsusilə xoşlarına gəlmişdi. Düzdür, hava küləkli olduğu üçün bir az tərəddüdləri olsa da, peşəkar təlimçilərin məharəti sayəsində həyəcanları azalmış və külək, dalğa, qayıq üçlüyünün mübarizə ahəngindən zövq almışdılar.

Ayan bizimlə söhbəti zamanı məlumat verdi ki, böyüyəndə həkim olmaq istəsə də, rəsm çəkməyi də xoşlayır: "Mən atamın rəsmini də çəkmişəm. Həmin rəsmlə yarışmaya da qatılmışam və çox bəyənilib. Sulu boya, karandaşla çəkdiyim çoxlu digər rəsmlərim də var, amma düşünürəm ki, indiyə qədər çəkdiyim ən gözəl iş atamın rəsmi olub. Mən belə igid polkovnikin qızı olduğum üçün qürur duyuram. Onu da bilirəm ki, bütün Azərbaycan mənim atamla qürur duyur".

"Bu gün burada çox gözəl zaman keçirdim. Yelkənli qayıq idman növü ilə tanış oldum. Bəzi məlumatlara yiyələndim. İlkin olaraq ipə düyün vurmağı, qayığı necə idarə etməyi öyrəndim. Bəlkə də gələcəkdə mən də bu idman növünə yönələrəm"- deyə söyləyir şəhid polkovnik-leytenant Raqif Orucovun oğlu Nihad: "Atam üçün çox darıxıram. Düzdür, işi çox olurdu, amma vaxt tapan kimi mənimlə zaman keçirər, gəzməyə aparırdı. O günlər indi də yadımdan çıxmır. Mən də böyüyəndə atam kimi hərbçi olacam. Mən də onun kimi cəsur olacam. İşğal olunan torpaqlarımızın hər bir qarışını geri qaytaracam..."

Gələcək bu gün böyüyən uşaqların xəyalları üzərində qurulub. Burada həmsöhbət olduğumuz şəhid övladlarının, gələcəyimizin təməllərinin arzu və istəklərini dinlədikcə qürurlandıq, Azərbaycanın gələcəyinin də əmin əllərdə olacağından şərəf duyduq.

Və elə bu ümidli və fərəhli hisslərlə də bu məkandan uzaqlaşırdıq... Artıq yavaş-yavaş günəşin zərrin şəfəqləri üfüqdə yox olurdu...

Sadəcə, qağayılar kimi masmavi dənizdə süzən şən, sevincli və qürurlu balaca sərnişinləri olan ağ yelkənli qayıqlar üzürdü dənizin ənginliklərinə, onların diləklərinə, arzularına sarı...

***Yasəmən MUSAYEVA,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***"Azərbaycan"***

# "Azərenerji ASC "Şəmkir" SES-də təmir-bərpa işləri aparır

"Azərenerji" Açıq Səhmdar Cəmiyyəti ölkənin ikinci böyük su elektrik stansiyası olan "Şəmkir" SES-də təmir-bərpa işləri həyata keçirir.



Ötən ilin payızından başlayaraq "Reabilitasiya Proqramı" çərçivəsində bu stansiyanın hidroaqreqatlarında təmir-bərpa işləri aparılıb və 2 saylı hidroaqreqat üçün sifariş əsasında gətirilən ehtiyat hissələri dəyişdirilib, 330 kV-luq blok avtotransformatoru əsaslı təmir olunub. Bununla itirilmiş güc bərpa olunub, dayanıqlıq və etibarlıq artırılıb.

Hazırda əsas diqqət "Şəmkir" SES-in sutullayıcı qurğusuna yönəlib. Çünki 1983-cü ildə stansiya istismara veriləndən sonra sutullayıcı qurğuda heç bir təmir işləri aparılmayıb. Ona görə də bu qurğunun döşəməsində, tavanında, orta aşırımında, cıxış başlıq hissəsində, istinad divarlarında aşınmalar və çatlar əmələ gəlib. Qurğuda su sızmalarının qarşısını almaq üçün yerli və xaricdən dəvət edilən mütəxəssislərin iştirakı ilə layihə hazırlanır və yaxın vaxtlarda əsaslı təmir işlərinə başlanacaq. Eyni zamanda planlaşdırılan işlər çərçivəsində "Şəmkir" SES-in açıq paylayıcı qurğusunun, hidroaqreqat generatorların təsirlənmə sistemlərinin, idarəetmə mərkəzinin, SCADA dispetçer idarəetmə sisteminin, tezliyin və aktiv gücün avtomatik tənzimlənməsi sisteminin yenidən qurulması nəzərdə tutulub.

***"Azərbaycan"***

## Azərbaycan XİN Abxaziyada keçirilmiş qondarma "prezident seçkiləri" ilə bağlı bəyanat yayıb

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Gürcüstanın Abxaziya bölgəsində 2019-cu il avqustun 25-də keçirilmiş qondarma "prezident seçkiləri" ilə bağlı bəyanat yayıb. Bu barədə AZƏRTAC-a nazirliyin mətbuat xidmətindən məlumat verilib.

Bəyanatda bildirilir ki, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Gürcüstanın suverenliyini və ərazi bütövlüyünü dəstəklədiyini bir daha təsdiqləyir və 25 avqust 2019-cu il tarixində Gürcüstanın Abxaziya bölgəsində keçirilmiş qondarma "prezident seçkiləri"ni, həmçinin onların nəticələrini tanımır.

Azərbaycan Xarici İşlər Nazirliyi Abxaziya məsələsinin beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq sülh yolu ilə həlli üçün danışıqların davam etdirilməsinin vacib olduğunu hesab edir.

## Atəşkəs rejimi 20 dəfə pozulub

Ermənistan silahlı qüvvələrinin bölmələri sutka ərzində cəbhənin müxtəlif istiqamətlərində atəşkəs rejimini 20 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikasının İcevan rayonunun Berkaber kəndində yerləşən mövqelərdən Azərbaycan Respublikasının Qazax rayonunun Qızılhacılı kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Baş Qərvənd, Cəvahirli, Yusifcanlı, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Tərtər rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqelərinə atəş açılıb.


## "Azərsu" ASC-nin daxili vəsaiti hesabına İnformasiya və Kommunikasiya Texnologiyaları (İKT) üçün kompüter, notebook, monitor, printer və scaner avadanlıqlarının satın alınması məqsədilə

### *açıq tender elan edir*

İnformasiya və Kommunikasiya Texnologiyaları (İKT) üçün kompüter, notebook, monitor,printer və scaner avadanlıqlarının satın alınması

Tender iştirakçıları **https://www.etender.gov.az** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: *aşağı qiymət, yüksək keyfiyyət, təcrübə, maliyyə vəziyyəti.*

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə tender təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı 200 manatdır.**

**Təşkilat: "Azərsu" ASC**
**VÖEN: 9900001751**
**Bank: "Kapital Bank"ASC-nin 1 saylı Nəsimi filialı**
**Kod: 200112**
**VÖEN: 9900003611**
**M/h: AZ37NABZ 01350100000000001944**
**S.W. İ. F. T. BIK: AİİBAZ2X**
**H/h: AZ65AİİB 33070019441100216111**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak etmək üçün yazılı müraciət (tender komissiyasının adına);*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *əsas şərtlər toplusunda nəzərdə tutulmuş digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **23 sentyabr 2019-cu il saat 18:00-a** qədər, tender təklifi və bank təminatını isə **1 oktyabr 2019-cu il saat 18:00-a** qədər portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **2 oktyabr 2019-cu il saat 11:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.**

***Tender komissiyası***



## "Azərsu" ASC-nin daxili vəsaiti hesabına Müştəri xidmətləri üçün tələb olunan mobil əl terminalları və mobil printerlərin satın alınması məqsədilə

### *açıq tender elan edir*

İnformasiya və Kommunikasiya Texnologiyaları (İKT) üçün kompüter, notebook, monitor, printer və scaner avadanlıqlarının satın alınması

Tender iştirakçıları **https://www.etender.gov.az** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: *aşağı qiymət, yüksək keyfiyyət, təcrübə, maliyyə vəziyyəti.*

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə tender təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı 200 manatdır.**

**Təşkilat: "Azərsu" ASC**
**VÖEN: 9900001751**
**Bank: "Kapital Bank"ASC-nin 1 saylı Nəsimi filialı**
**Kod: 200112**
**VÖEN: 9900003611**
**M/h: AZ37NABZ 01350100000000001944**
**S.W. İ. F. T. BIK: AİİBAZ2X**
**H/h: AZ65AİİB 33070019441100216111**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak etmək üçün yazılı müraciət (tender komissiyasının adına);*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *əsas şərtlər toplusunda nəzərdə tutulmuş digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **18 sentyabr 2019-cu il saat 18:00-a** qədər, tender təklifi və bank təminatını isə **26 sentyabr 2019-cu il saat 18:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **27 sentyabr 2019-cu il saat 11:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.**

***Tender komissiyası***






# DÜNYA






**Terror**

## PKK terrorçuları ilə döyüşdə türkiyəli hərbçilər şəhid oldu



İraqın şimalında PKK terrorçuları ilə döyüşdə 3 türkiyəli hərbi qulluqçu şəhid olmuş, 7-si yaralanmışdır. Bu barədə Türkiyə Müdafiə Nazirliyi məlumat vermişdir.

Bildirilir ki, toqquşmalar davam edən "Pəncə-3" antiterror əməliyyatı zamanı baş vermişdir. Yaralılar hospitallara yerləşdirilmişdir.

Xatırladaq ki, Türkiyə ordusu mayın axırlarından bəri İraqda antiterror əməliyyatları keçirir. "Pəncə" adlı əməliyyatlar çərçivəsində PKK terrorçularının obyektlərinə havadan və qurudan zərbələr endirilir.

Terrorçulara qarşı artilleriya, ATAK hərbi helikopterləri və pilotsuz təyyarələrdən istifadə olunur. İraqın şimalında yerləşən Həftənin rayonunda PKK-nın 9 terrorçusu zərərsizləşdirilmişdir. Bundan əlavə, onların atəş mövqeləri və sığınacaqları məhv edilmişdir.

Mayın 27-də Türkiyənin Milli Müdafiə naziri Hülusi Akarın rəhbərliyi ilə İraqın Hakurk rayonunda "Pəncə-1" əməliyyatı başlamışdır. Ötən ay əməliyyatın miqyası genişləndirilmiş və o, "Pəncə-2" adı almışdır.

Avqustun 23-də əməliyyatın yeni mərhələsi elan edilmiş və "Pəncə-3" adlanan əməliyyat İraqın Sinat-Həftənin rayonlarını əhatə etmişdir. Əməliyyatın məqsədi Türkiyənin cənub-şərq sərhədinin təhlükəsizliyini təmin etməkdir.

**Ekoloji fəlakət**

## Amazon meşələrinə od qoydular

### Planetin ağciyəri yanır



Yay mövsümü dünyanın müxtəlif regionlarında meşə yanğınlarının baş verməsi ilə seçilir. Xüsusilə ABŞ-ın Kaliforniya ştatında, Kanadada, Sibirdə təbii fəlakətlər diqqəti cəlb edir. Meşə yanğınlarının daha çox tüğyan etdiyi yer isə Amazon meşələridir. Bu regionda bitki örtüyünün, flora və fauna aləminin məhv olması daha çox narahatlıq doğurur, çünki Braziliya və onunla həmsərhəd ölkələrin ərazisində yerləşən bu meşələr bəşəriyyət üçün böyük əhəmiyyət kəsb edir.

Sahəsi 5 milyon kvadratkilometrdən çox olan Amazon meşələri dünyada tropik meşələrin sahəsinin yarısını təşkil edir. Amazon Yer kürəsi sakinlərinin tənəffüs etdiyi oksigenin 20 faizini verir və buna görə də onu planetin ağciyəri adlandırırlar. Dünyada şirin suyun 20 faizi, planetin bütün flora və faunasının 10 faizi buradadır. Üstəlik, Amazon meşələri dünya miqyasında karbon qazı tullantılarının 25 faizini udur.

Amazon meşələri böyük biolololoji müxtəlifliyi ilə fərqlənir. Burada 40 min növ bitki, o cümlədən 16 min növ ağac, 3 min növ balıq, 2 min növ quş, 1000 növdən çox məməli, ikihəyatlı (suda-quruda yaşayan) və sürünən heyvan, 130 min növ onurğasız heyvan yaşayır.

Bir aya yaxındır ki, Amazon meşələri od tutub yanır. Üç ölkənin ərazisində - Braziliya, Boliviya və Paraqvayda meşə yanğınları davam edir. Ekoloji fəlakət görünməmiş miqyas alıb. Yerli hakimiyyət orqanlarının verdiyi məlumatlara görə, Amazon meşələrində yanğın ocaqlarının sayı 150 mini keçib. Braziliya Milli Kosmik Tədqiqatlar İnstutunun verdiyi məlumata görə, bu yay ölkədə 85 min yanğın ocağı qeydə alınmışdır ki, bu da ötənilki göstəricidən təxminən iki dəfə çoxdur. İnstitut qeyd etmişdir ki, ilin əvvəlindən bəri 1,8 milyon hektardan çox meşə yanmışdır.

Meşə yanğınlarının mütləq əksəriyyəti Braziliya ərazisindədir. Ona görə də ekoloji fəlakətin qarşısını almaq məsuliyyətini ilk növbədə bu ölkənin hakimiyyət orqanları daşıyır. Ekoloqlar qəti fikirdədirlər ki, meşə yanğınlarının səbəbi adamların təsadüfən ocaq qalaması, siqaret kötüyü atması, isti hava, yaxud elektrik xətlərinin açılması deyil, Braziliya iqtidarının yürütdüyü siyasətdir. Ölkənin hazırkı Prezidenti Jair Bolsonaru hakimiyyətə gələn kimi Amazon meşələrinin iqtisadi baxımdan mənimsənilməsi prosesi başladı. Dövlət başçısının sərəncamı ilə meşələrdə ağaclar kəsilir, yollar çəkilir, faydalı qazıntılar kəşf edilib hasil olunur. Bir tərəfdən iri şirkətlər, digər tərəfdən də yerli hakimiyyət orqanları soya əkinlərinin sahəsini genişlətmək üçün meşələri qırır. Başqa sözlə, kənd təsərrüfatı işləri görmək, eləcə də mal-qaraya otlaqlar yaratmaq üçün meşə ərazisi "təmizlənir".

Nə qədər qəribə olsa da, Prezident Bolsonaru hesab edir ki, Amazon bölgəsinin inkişafı istiqamətində gördüyü tədbirlərə müxtəlif qeyri-hökumət təşkilatları, bəzi dövlətlər maneçilik törədir. Dövlət başçısı meşələrin od tutub yanmasında məhz onları ittiham edir. Bolsonarunun fikrincə, Braziliyanın xarici düşmənləri və dövlət başçısının siyasi rəqibləri onu dünya ictimaiyyəti qarşısında biabır etmək istəyirlər. Meşə yanğınları geniş vüsət aldıqdan sonra ekoloji təşkilatlar Prezidentə xatırlatmışdır ki, yanmış Amazon meşələrini bərpa etmək üçün 10 milyon il vaxt tələb olunur. Amma dövlət başçısı tövrünü pozmadan demişdir: "Siz illəri saymayın, bu rayonun inkişafı ilə Braziliyada iqtisadi artımı hesablayın".

Yalnız Amazon meşələrində yanğınlar genişlənib hadisə yerindən 2700 kilometr uzaqlıqda yerləşən 25 milyonluq San-Paulu şəhərini tüstüyə bürüdükdən sonra Braziliya ictimaiyyətinin təzyiqi ilə dövlət rəhbərliyi hərəkətə keçməyə məcbur oldu. Bolsonaru əvvəlcə şikayətləndi ki, ekoloji fəlakətin qarşısını almaq üçün ölkənin kifayət qədər ehtiyatları yoxdur. Bununla belə, dövlət başçısı yağınların söndürülməsi işinə ordu bölmələrini cəlb etmək qərarına gəldi.

Amazon meşələrində yaranmış ekoloji vəziyyətə dünya dövlətləri də etinasız qalmamışdır. Meşə yanğınlarını söndürmək üçün planetin müxtəlif guşələrində Braziliyaya yardım göstərməyə hazır olanların sayı artır. Məsələ dünən Fransada işini başa çatdırmış G7 sammitində də müzakirə olunmuşdur. Qeyd edilmişdir ki, Amazonda meşə yanğınları problemi beynəlxalq əhəmiyyət kəsb edir, çünki söhbət bioloji müxtəliflikdən, oksigendən və qlobal istiləşmə ilə mübarizədən gedir. Planlaşdırıldığına görə, fəlakətlə mübarizə aparmaq üçün beynəlxalq səfərbərlik mexanizmi işə salınacaq.

Bütün bunlara baxmayaraq, Amazon meşələrində yanğınlar davam edir, alov yeni-yeni sahələri udur, şəhərlər bir-birinin ardınca tüstü udmaq məcburiyyətində qalır. Yanğınlar Venesuela, Argentina, Boliviya, Peru və Kolumbiya ərazilərinə də yayılır. Artıq davam edən ekoloji fəlakətin ilk acı nəticələri özünü göstərir. Əldə olan məlumata görə, meşə yanğınlarının güclənməsi Yer atmosferində karbon qazının həcminin xeyli artmasına gətirib çıxarmışdır. Bu qaz havanın ən güclü çirkləndiricisidir. O, böyük məsafələrə yayıla və havada bir ay qala bilir. Güclü küləklər karbon qazını yer üzünə yaxınlaşdıra bilər ki, bu da havanın keyfiyyətinə təsir göstərər.

Bəşəriyyət həyəcan içindədir. Meşə yanğınları heyvan və quşları, bitkiləri məhv edir. Di Kaprio, Madonna, Ronaldu kimi tanınmış adamlar vəziyyətdən narahatlıqlarını ifadə edir, dünya dövlətlərini və beynəlxalq təşkilatları yanan Amazon meşələrini xilas etməyə çağırırlar. İndi top siyasi liderlərin meydanındadır. Sözdən işə keçməyin vaxtı çoxdan gəlib çatmışdır.

***A.MEHDİYEV, "Azərbaycan"***

**Beynəlxalq siyasət**

## Dünya liderləri Fransada aktual problemlərə çarə tapmadılar

### G7 sammitində Rusiyanın kluba qayıdışı baş tutmadı

Fransanın Biarrits kurort şəhərində G7 ölkələri liderlərinin dünən başa çatmış görüşündə, həmişə olduğu kimi, aktual beynəlxalq problemlər müzakirə edildi, dünyanın aparıcı dövlətlərinin başçıları fikir mübadiləsi apardılar, bu və ya digər mühüm məsələyə münasibətdə mövqelərini açıqladılar. Görüş iştirakçıları Şimali Koreya, İran, Suriya və Liviya məsələlərinə toxundular, eləcə də beynəlxalq ticarətdə vəziyyətdən, Amazon meşələrində ekoloji böhrandan söz açdılar.




Bəri başdan qeyd etmək lazımdır ki, əvvəlki sammitlərdə olduğu kimi, bu dəfə də hansısa problemin konkret həllindən söhbət getmədi. Bununla belə, üç gün davam etmiş zirvə görüşündə müzakirələr kifayət qədər qızğın keçdi. Diqqəti daha çox çəkən ABŞ Prezidenti Donald Trampın Rusiyanı növbəti G7 sammitinə dəvət etmək təşəbbüsü ətrafında baş vermiş müzakirələr oldu. Tramp sammitin ikinci günündə bu ideyanı növbəti dəfə ortaya atdı. O bildirdi ki, Rusiyanın G7-yə qayıtmasını istəyən adamlar var: "Məncə, bu təşəbbüs dünyada bir çoxları üçün faydalı olardı. Elə hesab edirəm ki, bu, müsbət mövqedir. Kim mənimlə razıdırsa, bu məsələni müzakirə edirik". Trampın fikrincə, Rusiya Prezidenti Vladimir Putini Suriya və İran kimi bəzi problemləri müzakirə etmək üçün danışıqlara cəlb etməyin əhəmiyyəti var, çünki Rusiya belə məsələlərdə aparıcı oyunçudur.

Lakin Trampın təşəbbüsü G7 sammitinin digər iştirakçılarında rəğbət doğurmadı. Əldə edilən məlumata görə, ABŞ Prezidentinin müsahibələrində onu yalnız İtaliyanın Baş Naziri Cüzeppe Konte dəstəkləmiş, Yaponiyanın Baş Naziri Sindzo Abe isə neytral mövqe tutmuşdur. G7-nin qalan liderləri Rusiya Prezidentinin kluba qayıtmasının əleyhinə çıxmışlar.

Sammit başlamazdan əvvəl dünya KİV-i xəbər vermişdi ki, Rusiyanın G7-yə qayıtması ideyasını məhz Fransa Prezidenti Emmanuel Makron irəli sürmüş və onu ABŞ lideri dəstəkləmişdir. Biarritsdə isə Makron əks mövqe nümayiş etdirdi. Fransa liderinin fikrincə, Rusiyanın iştirakı ilə G8-in bərpa olunması dünyanın aparıcı dövlətlərinin zəifliyi ola bilər, çünki Prezident Putinin kluba qayıtması hələ tezdir. Belə ki, Krım probleminin və Donbas münaqişəsinin tənzimlənməsində irəliyə doğru nəzərəçarpan addım atılmamışdır.

Makronun mövqeyini Almaniya, Böyük Britaniya və Kanada liderləri dəstəkləmişlər. Belə bir məqam vurğulanmışdır ki, Rusiyanın 2014-cü ildə G8-dən xaric olunmasına gəlib çıxarmış səbəblər aradan qaldırılmayanadək Putinin qayıtmasından söhbət gedə bilməz. Sammitdə iştirak etmiş Avropa İttifaqı Şurasının sədri Donald Tusk da ABŞ Prezidentinin fikri ilə razılaşmamışdır.

Bununla yanaşı, Tramp başqa bir ideya irəli sürmüşdür ki, Rusiya Prezidenti Putin G7-nin gələn il ABŞ-da keçiriləcək növbəti sammitinə qonaq kimi dəvət oluna bilər. Yeri gəlmişkən, ABŞ liderinin Rusiyanı kluba tamhüquqlu üzv, yoxsa qonaq kimi görmək istəməsi hələ kifayət qədər aydın deyil, çünki Tramp gah G7-nin genişləndirilib G8-ə çevrilməsindən, gah da Putinin G7-yə qonaq kimi dəvət edilməsinin zəruriliyindən danışır. Buna baxmayaraq, dünyanın aparıcı dövlətlərinin zirvə görüşündə bu məsələyə münasibətdə ortaq məxrəcə gəlmək mümkün olmadı. Bəzi siyasi müşahidəçilərin fikrincə, G8 formatının bərpası yaxın gələcəkdə ağlabatan deyil. Ona görə də ola bilsin ki, Tramp rusiyalı həmkarının maksimum bəzi beynəlxalq məsələləri müzakirə etmək üçün qonaq kimi G7 sammitində iştirak etməsinə nail ola bilər. Özü də G7-nin üzvü olmayan hansısa başqa bir ölkənin sammitə dəvət olunması elə bir fövqəladə hadisə deyil. Məsələn, elə Biarrits görüşündə Tusk qeyd etmişdir ki, Ukrayna növbəti sammitə dəvət edilə bilər.

Sammitin gedişində gözlənilməz hadisə də baş verdi. İranın Xarici İşlər naziri Cavad Zərif G7 sammitinin keçirildiyi şəhərdə peyda oldu. İranın baş diplomatı Biarritsdə Fransa Prezidenti Makronla və Xarici İşlər naziri Jan-İva Le Drianla bir araya gəldi. Məlumata görə, sammit iştirakçıları Zərifin səfərinə etiraz etməmişlər. Fransa və İran tərəfləri iranlı nazirin Biarritsə səfəri barədə ABŞ və Almaniyanın səlahiyyətli orqanlarını məlumatlandırmışdı.

"Frans Press" agentliyinin verdiyi xəbərə görə, iranlı nazirlə danışıqların əsas mövzusu İranın nüvə proqramına dair beynəlxalq sazişin qorunub saxlanması olmuşdur. Almaniya Kansleri Angela Merkelin dediyi kimi, Zərifin Biarritsə gəlişi paralel hadisə idi, amma G7 sammiti çərçivəsində görüş deyildi.

İran Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Abbas Musəvi nazir Zərifin Fransaya səfərinə toxunarkən məlumat vermişdir ki, nazir fransız həmkarı Le Drianın dəvəti ilə danışıqlar aparmaq üçün Fransaya gəlmişdir. O, həmçinin qeyd etmişdir ki, İran diplomatiyasının başçısı G7 sammitində iştirak edən ABŞ nümayəndə heyəti ilə görüşməyi planlaşdırmır.

İran Xarici İşlər nazirinin Biarritsə səfərinin yekunlarına gəlincə, Zərif Fransada keçirdiyi görüşləri İranın fəal diplomatiyasının təzahürü kimi qiymətləndirmişdir. O, Makron, Le Drian və Fransanın Maliyyə naziri Brüno Le Merlə görüşdən, həmçinin Böyük Britaniya və Almaniya nümayəndələri üçün birgə brifinqdən sonra Twitterdəki səhifəsində yazmışdır: "İrəliyə gedən yol mürəkkəbdir, amma ən yaxşısı bu yolu yoxlamaqdır".

***Allahverdi MEHDİYEV, "Azərbaycan"***

**Günün hadisələri**

## KXDR-də yeni yaylım atəşi sistemi sınaqdan keçirildi



Pxenyan daha bir yeni silah növü - çox iri reaktiv yaylım atəşi sisteminin uğurla sınaqdan keçirirlməsi barədə məlumat vermişdir. Sınaqlarda dövlət başçısı Kim Çen İn şəxsən iştirak etmişdir. Bu barədə KCNA informasiya agentliyi xəbər verir.

Məlumatda deyilir ki, sınaqlar uğurlu olmuş, bütün hədəflər vurulmuşdur. Silahın texniki xüsusiyyətləri açıqlanmamışdır.

Kim Çen İn bu sahədə uğurlara görə şimalı koreyalı alimləri tərifləmiş və "düşmən qüvvələr tərəfindən daim artan militarist təhlükənin qarşısını qətiyyətlə almaq üçün" onları hərbi yeniliklər hazırlamağı davam etdirməyə çağırmışdır.

Bundan əvvəl Cənubi Koreya KXDR-in Yapon dənizi istiqamətində iki ballistik raket atması barədə məlumat vermişdi. Hamgön-Namdo əyalətindən atılan raketlər 380 kilometr məsafə qət etmişdir. Uçuşun maksimal hündürlüyü 97 kilometrə çatmışdır.

## Əfqanıstanda kənd səhvən bombalandı



NATO-nun qırıcı təyyarələri Əfqanıstanın şərqində yerləşən Loqan əyalətini səhvən vurmuşdur. Bu barədə jurnalistlərə əyalətin şura başçısı Həsibullah Stanikzey məlumat vermişdir. Onun dediyinə görə, "Taliban" hərəkatının silahlılarına qarşı əməliyyat zamanı NATO aviasiyası səhvən Babus kəndində dinc sakinlərin evlərini bombalamışdır.

İlkin məlumata əsasən, qırıcıların zərbəsi nəticəsində bir nəfər həlak olmuş, dörd nəfər yaralanmışdır.

Əfqanıstanın eks-prezidenti Həmid Kərzay NATO-nu dinc əfqanlara hücumları dayandırmağa çağırmışdır.

NATO hadisəyə hələ ki şərh verməmişdir.

## Honq Konqda nümayişlər səngimir



Çin Xalq Respublikasının xüsusi inzibati rayonunda - Honq Konqda sakinlər şübhəli şəxslərin Pekinə təhvil verilməsi təşəbbüsünə qarşı genişmiqyaslı etiraz aksiyalarını davam etdirirlər. Meqapolisin minlərlə sakininin iştirakı ilə keçirilən aksiyalar sosial şəbəkələr vasitəsilə təşkil olunur.

Srağagün polis Kvai Fonq rayonunda nümayişçilərə qarşı gözyaşardıcı qazdan və təzyiqli sudan istifadə etmişdir. Buna cavab olaraq etirazçılar parklardan birinə gedən yolda istehkamlar qurmuşlar. Polis əlavə qüvvələrin köməyi ilə asayişi bərpa edə bilmişdir.

Son məlumata görə, radikal əhvali-ruhiyyəli etirazçılarla toqquşmalar zamanı 15 asayiş keşikçisi xəsarət almışdır. Polis hadisələrlə əlaqədar 36 nəfəri saxlamışdır.

## Yaponiyada Asama vulkanı oyandı



Yaponiyanın şərqində yenidən Asama vulkanı oyanmışdır. Bu barədə "Kyodo" agentliyi xəbər verir.

Yaponiya Meteoroloji Agentliyindən verilən məlumata görə, dünən səhər Honsyu adasında cari ay ərzində ikinci dəfə hündürlüyü 2568 metrə çatan Asama vulkanının püskürməsi başlanmışdır. Partlayışdan sonra vulkan külü 600 metrə qalxmışdır.

Xatırladaq ki, avqustun 7-də Asama vulkanı artıq püskürmüşdü. Partlayışlar aşağı səviyyədə qeydə alınmışdı. Ötən həftə həyəcan səviyyəsi üçüncü qatdan ikinci qatadək endirilmişdi.

## İndoneziyada gəmi yoxa çıxdı



İndoneziya sularında yük daşıyan gəmi fəlakət siqnalı verdikdən sonra yoxa çıxmışdır. Bu barədə "Sinxua" agentliyi xəbər verir.

Məlumata görə, gəminin göyərtəsində 25 nəfər olmuşdur. "Nur Allya" gəmisi filiz daşıyırmış.

Axtarış əməliyyatı aparılır. Lakin əlverişsiz hava şəraiti buna maneçilik törədir.

## İspaniya səmasında helikopter və təyyarə toqquşdu



İspaniyanın Mayorka şəhərinin səmasında təyyarə ilə helikopterin toqquşması nəticəsində 7 nəfər həlak olmuşdur. Bu barədə TRT telekanalı xəbər verir.

Hadisə Kamino Viyejo de Kostiks rayonunda baş vermişdir. Qəza nəticəsində helikopterdə olan 5 nəfər və kiçik mühərrikli təyyarədəki 2 nəfər həlak olmuşdur.

Uçuş aparatlarının qalıqları yaşayış evlərinin yaxınlığındakı yola düşmüşdür. Xoşbəxtlikdən əhali arasında tələfat olmamışdır.

Yerli sakinlər qəzadan sonra baş vermiş yanğını öz səyləri ilə söndürmüşlər. Hadisə ilə bağlı təhqiqata başlanmışdır.

# "Rəqəmsal Dünya Bölgələrdə" layihəsi davam edir






"Azercell Telekom" "Rəqəmsal Dünya Bölgələrdə" şüarı altında iyul ayından başlayaraq ölkənin şəhər və rayonlarında həyata keçirdiyi layihənin son tədbirini avqust ayının 26-da qədim Gəncədə təşkil etməyə qərar verib.

Daima sosialyönümlü layihələrə dəstək olan şirkətin nümayəndələri Gəncəyə səfər zamanı Heydər Əliyev Fondunun təşəbbüsü ilə yaradılan "Regional İnkişaf" İctimai Birliyi ilə birgə burada yerləşən Gəncə uşaq evinin sakinləri ilə görüşüb. Uşaq evində məskunlaşan 70 uşağa müxtəlif məktəb ləvazimatlarının olduğu çantalar hədiyyə edilib.

Ölkənin lider mobil operatoru "Azercell" həm də öz fəaliyyətində insanların həyat səviyyəsinin yüksəldilməsinə istiqamətlənmiş onlarla sosial layihənin təşəbbüskarı olub ki, bu layihələr sırasında "Mobil Göz Klinikası" və "Mobil Diş Klinikası" xüsusi yer tutur. Fəaliyyət göstərdikləri müddət ərzində bu səyyar klinikalar yalnız Bakıda deyil, həm də regionlarda valideyn himayəsindən məhrum uşaqları, qocaları, aztəminatlı ailələri, məcburi köçkünləri müayinə və müalicə edib.

Budəfəki səfərə qoşulan "Mobil Göz" və "Mobil Diş" klinikaları Gəncədə yerləşən SOS Uşaq kəndində 70-dən çox uşağı müayinədən keçirib. Müayinə və ilkin müalicə tədbirlərindən sonra uşaqlara hədiyyələr təqdim edilib.

Səfərin davamında "Azercell Telekom" və "Regional İnkişaf" İctimai Birliyinin nümayəndə heyəti Gəncə Qaçqın qəsəbəsi, Gəncə Dəmiryol yataqxanası, Neft bazası, Asfalt zavodunun inzibati binasında məskunlaşan Xocalı, Ağdam, Kəlbəcər, Laçın və Şuşadan olan qaçqın və məcburi köçkün ailələrilə görüşüb. Görüş zamanı 800 ailəyə şirkət tərəfindən müxtəlif məişət avadanlıqları hədiyyə edilib.

Yüksək texnologiyaların yaratdığı geniş imkanları təqdim edən "Rəqəmsal Dünya Bölgələrdə" layihəsi çərçivəsində məcburi köçkünlərin qəsəbəsində keçirilən tədbirdə müxtəlif innovativ oyunlar, interaktiv əyləncələr yer alıb. Təşkil edilən müsabiqə və oyunların iştirakçılarına "Azercell" tərəfindən müxtəlif hədiyyələr verilib. Bu tədbirlərə müvafiq icra hakimiyyətlərinin rəhbərliyi və nümayəndələri də qatılıb.

Bu gün axşam isə Gəncə şəhərində həyata keçirilən sosial təşəbbüslərdən sonra şəhərin sakinləri və qonaqları "Azercell"in təşkil etdiyi rəngarəng əyləncəli proqramdan zövq almaq imkanı qazanacaqlar.

Əsas hədəfi fəaliyyət göstərdiyi sahədə meydana gələn tendensiya və trendləri hamı üçün əlçatan etmək olan "Azercell" iyul ayının 30-dan etibarən Naxçıvan, Ordubad, Şərur, Quba, Qusar, Xaçmaz, Sumqayıt, İsmayıllı, Şamaxı, Qəbələ, Göyçay, Şəki, Zaqatala, Bərdə rayonlarında, Cocuq Mərcanlı kəndində, Mingəçevir, Yevlax, Lənkəran, Qazax, Tovuz, Şəmkir bölgələrində "Rəqəmsal Dünyanı Yarat" layihəsi çərçivəsində keçirilən tədbirlərdə 100 mindən çox insanı bir araya toplayıb.

Qeyd edək ki, 4G şəbəkəsini gücləndirən və genişləndirən "Azercell" son yarımildə ölkədə telekommunikasiya sahəsinin inkişafına 63 milyon manatdan artıq vəsait yatırıb. Bu müddət ərzində şirkət əhali əhatəsi dairəsində 86,2 faiz, coğrafi ərazi əhatə dairəsində isə 61,4 faiz yüksəlişə, həmçinin günlük LTE data istifadəsində 49,6 faiz, LTE yükləmə və ötürmə süretində isə 16 faizədək artıma nail olub. Bakı və Abşeron da daxil olmaqla, ölkənin 60-a yaxın bölgəsi 4G şəbəkəsinin əhatə dairəsindədir.

***"Azərbaycan"***

## Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlığı Agentliyi

### *açıq tenderə dəvət edir*

**Dövlət Xəzinədarlığı Agentliyinin məlumat mərkəzi üçün əlavə SSD disklərin alınması, serverlərarası şəbəkənin virtuallaşdırılması və istifadəçi kompüterlərin ehtiyat surətinin yaradılması üçün proqram təminatının satınalması**

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı - 300 manat**
**Alan: Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlığı Agentliyi**
**H/h: AZ02CTRE00000000000002728501**
**M/h: AZ41NABZ01360100000000003944**
**Kod: 210005**
**VÖEN: 1401555071**
**SWIFT: CTREAZ22**
**BSK: 7**
**BTK: 142340**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**
**İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:**

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *təkliflərlərin qiyməti yalnız Azərbaycan manatı ilə göstərilməlidir;*
- *səmərəli rəqabətin təmin edilməsi və elektron satınalmanın baş tutması üçün qeydiyyatdan keçməli olan malgöndərənlərin (podratçıların) minimal sayı əz azı 3 (üç) olmalıdır;*
- *təklif nəqliyyat və sığorta xərcləri, vergilər və rüsumlar daxil olmaqla təqdim edilməlidir;*
- *şərtlər toplusunda verilən tələblərə uyğun olaraq azı 3 (üç) iddiaçı tərəfindən təkliflər daxil olduğu halda tender baş tutmuş hesab edilir;*
- *iddiaçılara tenderlə bağlı hər bir məlumat Azərbaycan dilində təqdim ediləcəkdir. Müvafiq avtorizasiya sertifikatları istisna olmaqla, bütün digər sənədlər Tender komissiyasına Portal vasitəsilə Azərbaycan dilində təqdim edilməlidir;*
- *iddiaçı Tender komissiyasının qərarından, Tender komissiyasının üzvlərinin hərəkətlərindən (hərəkətsizliyindən) şikayət etmək hüququna malikdir. Şikayətlərin verilməsi və onlara baxılması qaydası "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanunu və digər müvafiq qanunvericilik aktları ilə tənzimlənir;*
- *tender qalibi ilə "Dövlət satınalmaları haqqında" qanuna uyğun olaraq satınalma müqaviləsi bağlanacaqdır;*
- *digər sənədlər:*
  - *iddiaçının hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya reyestrdən çıxarış və s.) surətləri;*
  - *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*
  - *iddiaçının son 1 (bir) ildəki maliyyə vəziyyəti barədə bank arayışı;*
  - *MAF*
  - *Əsas şərtlər toplusunda nəzərdə tutulmuş digər məlumatlar.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə Satınalan Təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri 10.09.2019-cu il saat 17:00-a qədər, tender təklifi və bank təminatı sənədlərini isə **19.09.2019-cu il saat 17:00-a** qədər PORTAL vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **20.09.2019-cu il tarixdə saat 15:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

Tenderlə bağlı hər bir əlavə məlumatın alınması üçün Dövlət Xəzinədarlığı Agentliyinin İnformasiya texnologiyaları şöbəsinin müdiri Nazim Qasımzadə ilə (012) 404 4699 nömrəli telefon və ya procurement@dxa.gov.az elektron ünvan vasitəsilə əlaqə saxlanıla bilər.

QEYD: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada PORTAL vasitəsilə aparılır.

E-şərtlər toplusunu **27.08.2019-cu il saat 12:00-dan** sonra əldə edə bilərsiniz.

***Tender komissiyası***

## "Bakı Metropoliteni" QSC

### "Bakı Metropoliteni" QSC-nin "C.Cabbarlı" stansiyasının sağ stansiya tunelində, pilləkən girişlərində alüminium təbəqədən çətirin və karnizin elementlərinin işıqlanma ilə birlikdə quraşdırılması işlərinin satın alınması üzrə *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**LOT-1. "Bakı Metropoliteni" QSC-nin "C.Cabbarlı" stansiyasının sağ stansiya tunelində, pilləkən girişlərində alüminium təbəqədən çətirin və karnizin elementlərinin işıqlanma ilə birlikdə quraşdırılması işlərinin satın alınması**

**İştirak haqqı - 1000 manat**

**Hesabın adı: BAKI METROPOLITENI QSC**
**Hesab nömrəsi (IBAN): AZ98AZRT38050019440010268002 AZN**
**VÖEN: 1402871431**
**Bankın adı: AZƏR TÜRK BANK ASC (Mərkəz Filialı)**
**Kod: 501361**
**VÖEN: 9900006111**
**Müxbir hesabı: AZ02NABZ01350100000000022944**
**SWIFT BIK: AZRTAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 40 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 70 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə Satınalan Təşkilata ünvanlaya bilərlər.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **18 sentyabr 2019-cu il saat 17:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **26 sentyabr 2019-cu il saat 16:00-a** qədər PORTAL vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **27 sentyabr 2019-cu il saat 16:00-da** açılacaqdır.

İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

QEYD: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada PORTAL vasitəsilə aparılır.

***Tender komissiyası***

## BİLDİRİŞ

"ASK" ASC Tbilisi prospekti, 33 ünvanında yerləşən yeni inzibati binanın konfrans zalı və yeməkxanası üçün mebel avadanlıqlarının alınması və quraşdırılması işlərinin satın alınmasına dair təkliflər sorğusu üsulu ilə keçirilmiş satınalma prosesinin nəticəsi olaraq "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 36.7.2-ci maddəsinə əsasən Azərbaycan, Bakı şəhəri, Ayna Sultanova, ev 60, M2, M1 ünvanında yerləşən "HERMES ZF" MMC qalib gəlmişdir. Həmin təşkilatla 26.08.2019-cu il tarixdə 80 980.00 (səksən min doqquz yüz səksən manat, 00 qəpik) manat məbləğində müqavilə imzalanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının əsas binasının və idman zallarının dam örtüklərinin təmiri işlərinin aparılması məqsədilə 23 avqust 2019-cu il tarixdə keçirdiyi açıq tender prosedurunda "R AND X" Məhdud Məsuliyyətli Cəmiyyət qalib elan edilmiş və bu təşkilatla müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən "Azərbaycan" qəzetinin 06 iyul 2019-cu il tarixli nömrəsində dərc edilmiş 5 LOT-dan ibarət açıq tender Tender komissiyasının 19 avqust 2019-cu il tarixli qərarı ilə "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 11.1-ci maddəsinə uyğun olaraq baş tutmamış hesab edilmişdir.

Qeyd olunanları nəzərə alaraq, Azərbaycan Respublikasının Mərkəzi Bankı "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həmin LOT-lar üzrə açıq tender üsulu ilə yenidən **elektron satınalma** keçirir:

**1-ci LOT:** Elektron sənəd dövriyyəsi sisteminin proqram platformasının 1 (bir) il müddətində on-site tipli dəstəklənməsi xidmətinin satın alınması;

**2-ci LOT:** Elektron imza üzrə sertifikatlaşma sisteminin proqram platformasının 1 (bir) il müddətində on-site tipli dəstəklənməsi xidmətinin satın alınması;

**3-cü LOT:** Elektron statistik məlumat bazası və analitik hesabatlıq sisteminin proqram platformasının 1 (bir) il müddətində on-site tipli dəstəklənməsi xidmətinin satın alınması;

**4-cü LOT:** Maliyyə savadlığı portalının proqram platformasının 1 (bir) il müddətində on-site tipli dəstəklənməsi xidmətinin satın alınması.

**5-ci LOT:** Mərkəzi Bankda istismarda olan Elektron imza üzrə sertifikatlaşma sisteminin modernizasiyası.

Tender proseduru 24 sentyabr 2019-cu il saat 12:00-da Dövlət satınalmalarının vahid internet portalında **(https://etender.gov.az/)** keçiriləcəkdir.

Maraqlı şəxslər müvafiq LOT üzrə tenderdə iştirak etmək üçün portal vasitəsilə elektron elanla tanış ola və iştirak etmək arzusunda olan hər bir LOT üzrə 100 (bir yüz) manat məbləğində iştirak haqqı ödəməklə iddiaçı qismində qeydiyyatdan keçərək tenderin əsas şərtlər toplusunu əldə edə bilər.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin Tender komissiyası bildirir ki, 11.07.2019-cu il tarixdə Mühafizə xidmətinin satın alınması məqsədilə həyata keçirilmiş kotirovka sorğusunun nəticələrinə əsasən "GESCO" ASC qalib elan edilmiş və həmin təşkilatla müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin Tender komissiyası bildirir ki, 4 iyul 2019-cu il tarixdə keçirilmiş təkliflər sorğusunun nəticələrinə əsasən "Qala Express" MMC qalib elan edilmiş və həmin təşkilatla müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Bəxtiyar Sadıqov, Elman Məmmədov və İmamverdi İsmayılov akademik Abel Məhərrəmova əzizi

**AZƏR SADIQOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin Səhiyyə Komitəsinin sədri Əhliman Əmiraslanov və komitənin üzvləri akademik Abel Məhərrəmova əzizi

**AZƏR SADIQOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Ali Məhkəməsinin kollektivi Ali Məhkəmənin sabiq hakimi

**MİRPAŞA HÜSEYNOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova akademik Abel Məhərrəmova əzizi

**AZƏR SADIQOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Yeni Azərbaycan Partiyasının icra katibinin müavini, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı YAP İdarə Heyətinin üzvü, akademik Abel Məhərrəmova əzizi

**AZƏR SADIQOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Qeydiyyat və Notariat Baş İdarəsinin kollektivi Gəncə "ASAN xidmət" mərkəzində Ədliyyə Nazirliyinin Qeydiyyat şöbəsinin rəisi Sevinc Hüseynovaya oğlu

**ELÇİN QULİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikasının Memarlar İttifaqının İdarə Heyəti Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Zakir Sultanova anası

**DİLARƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası və Katibliyin rəhbərliyi 83 saylı Ağcabədi-Füzuli seçki dairəsi dairə seçki komissiyasının sədri

**MÜBAHİR NƏSİROVUN**

vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Memarlar İttifaqının İdarə Heyətinin sədri Elbay Qasımzadə Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Zakir Sultanova anası

**DİLARƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bakı Dövlət Universitetinin kollektivi akademik Abel Məhərrəmova əzizi

**AZƏR SADIQOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 9004
Sifariş 2809
Qiyməti 40 qəpik